


7

# Böyük Qayıdış və təhsilimiz



15

## Baş nazirin sabiq müşaviri: "Prezident Əliyevin diplomatiyasını alqışlayıram"

Səs

№ 083 (6524) 13 may 2022-ci il. Qiyməti 60 qəpik



## Şuşadan "Xarıbülbül"

### Festivalının sədaları dünyaya yayılır!



2

# Nikol Paşinyan?

## hakim qarşısına çıxarılır..



6

Ermənistanda baş nazir Nikol Paşinyan Dağlıq Qarabağda ermənilər üçün fəlakətli nəticələrə gətirib çıxaran müharibənin səbəblərinə "aydınlıq" gətirmək üçün şahid qismində dindiriləcək. Deyim ki, bu barədə ölən hərbçilərin valideynlərinin vəkili Vaan Ovannisyan bildirib. Ovannisyanın...

## Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında görüş olub

Dünən Düşənbə şəhərində MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri...





7

## Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasında növbəti görüş keçirilib

7

## Sərhədçilərimiz Xocalı aeroportunda!



# MEDİA

## "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb

## DİQQƏT:

### Bu məhsullarda bahalaşma olacaq?



9

## Qazdan gələn təhlükə: nə etməli, nə etməməli?



13

Azərbaycan Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb. Bu barədə SİA-ya Agentlikdən məlumat verilib. Bildirilib ki, məktubda Təşkilatın "2022-ci il Dünya Mətbuat Azadlığı...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

4




6

# Şuşaya tur təşkil edənlər NİYƏ ÖZ CİBLƏRİNİ GÜDÜR?

# Şuşadan "Xarıbülbül"

## Festivalının sədaları dünyaya yayılır!

***Bu gün Şuşamız yenidən bayram libası geyindi. Yazın bu çağında 29 il yolumuzu gözləyən, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalına start verilib. Hər tərəfi daşı, dağı musiqi ilə yoğrulmuş Şuşamızda belə bir tədbirin keçirilməsi əzəli torpağımızda bir DİRÇƏLİŞ, QAYIDIŞ himninə çevrilib. Bu himn milyonlarla insanın qəlbinin musiqisidir ki, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qəlbi ilə həmahənglik təşkil edir.***

Yolumuzu həsrətlə gözləyən, dərddən torpağı cadar olmuş Şuşamız 29 ildən sonra yenə doğmalarını, qonaqlarını sevinclə qarşıladı. Şuşamız Zəfər Qurultayı dünyaya səpələnmiş soydaşlarımızı - həmrəylik, birlik nümayiş etdirən insanları bir araya gətirdi. Şuşa əzəməti, Şuşa qüdrəti daha aydın çalarları ilə nura boyanmış dünyamıza bir mayakdır. "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşamız böyük sevgi ilə hər kəsə qucaq açır. Hər dəfə qəlbimizin dərinliklərində böyük həsrətlə baş qaldıran hissləri bu gün yaşaya biləcəyimiz Şuşamızın hər yerindən xalq ruhunu əks etdirən musiqi sədaları eşidilir. İllərdir bayramlarımızı Şuşada, Cıdır düzündə qeyd edəcəyimizi arzuladığımız məkanda əbədi məşəlimizi yandırdıq və bu məşəl bizim xoşbəxt gələcəyimizdir. Toy-büsata, bayramlara susamış ocağımızda Novruz tonqalı yandırıldı. Şuşa məscidində azan səsi eşidildi, bayram namazı qılındı. Qələbəmizin möhtəşəmliyini könlü dolusu yaşayırıq.

Şuşa yeni bir qaynar dövrünü yaşayır.











Azərbaycan Prezidenti İlham Əliyevin "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamları artıq Şuşada yeni bir həyatın başlanmasından xəbər verir. Bu müjdə hər tərəfə yayılır və bütün dünyamıza işıq salır. Şuşaya gedən yol Zəfər yoludur.

### DÜNYA ÖLKƏLƏRİNDƏN GƏLMİŞ MUSİQİÇİLƏR

### İŞĞALDAN AZAD OLUNAN ŞUŞAMIZDADIRLAR

Bəli, bu gün Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına ev sahibliyi edir. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan olunan "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# Şuşadan “Xarıbülbül”

## Festivalının sədaları dünyaya yayılır!

Mayın 14-də başa çatacaq sayca beşinci festivalda xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri iştirak edirlər. Bu, o deməkdir ki, dünya ölkələrindən gəlmiş musiqiçilər işğaldan azad olunan Şuşamızdadırlar və öz ölkələrində bu gözəl diyarın nağılvari təbiət gözəlliklərindən danışacaqlar.

Xatırladaq ki, Şuşa şəhərində ilk ”Xarıbülbül” festivalı məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə keçirilib. Tədbir həmin ilin mayında - Şuşada Xarıbülbülün çiçəklənmə dövründə təşkil olunub. İlk festivalda yerli ifaçılarla yanaşı, keçmiş ittifaq respublikalarından Qırğızıstan, Qazaxıstan, Rusiya (Başqırdıstan), Litva və Belarusdan da musiqi qrupları iştirak ediblər. 1990-cı ildən ”Xarıbülbül” festivalı beynəlxalq status alıb. İkinci festivala Hollandiya, Almaniya, İsrail və Türkiyədən də folklor qruplarının dəvət edilməsi böyük marağa səbəb olub. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar Şuşada ağır vəziyyət yarandığından əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib. Ümumilikdə ikinci festivalda müxtəlif ölkələrdən 170-ə yaxın nümayəndə iştirak edib. Festivalın keçirilmə tarixlərinə nəzər salsaq görərik ki, 1991-ci ildə keçirilən III ”Xarıbülbül” festivalına 25 ölkədən 300-ə yaxın nümayəndə qatılıb. ABŞ və Avstraliyadan olan rəssamlar da festivala təşrif buyurublar. Tamaşaçıların çoxluğu səbəbindən festivalın əsas konsertləri stadionlarda keçirilib. II və III festivalların yekun konsertləri Bakıda Heydər Əliyev Sarayında təşkil olunub. Dördüncü festival 1992-ci il mayın 15-də başlamalı, o zamanadək keçirilənlərin ən möhtəşəmi olmalı idi. Dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Lakin həmin ilin 8 mayında Şuşa şəhəri Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildiyindən ”Xarıbülbül” festivalını burada təşkil etmək mümkün olmayıb. Festival yalnız qısa müddətdə Ağdam şəhərindəki İmarət kompleksində keçirilib.










### ”BİZ BU GÖZƏL ƏNƏNƏNİ BƏRPA ETDİK”

Bu gün Zəfər qazanmış Azərbaycan yenidən əzəmətli torpağında festivalını təşkil edir və bütün dünya bu möhtəşəm tədbirə diqqət kəsilib. İndi Şuşa şəhəri yenidən ənənələrini bərpa edərək yeni dövrünü yaşayır. Şuşada qeyd etdiyimiz kimi, ”Xarıbülbül” festivalı keçirilir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı Qələbəsindən sonra ənənəvi ”Xarıbülbül” festivalı yenidən Şuşa şəhərində təşkil edildi. İşğaldan azad olunan Şuşada 2021-ci il mayın 12-13-də Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən festivalın açılışında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də iştirak etmişdilər. Cənab Prezident festivalın açılışında çıxışında ”Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra ”Xarıbülbül” festivalı Şuşada hər il keçiriləcək”, - deyərək festivalın Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə etdiyini bildirmişdi. ”Xarıbülbül” musiqi festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı ”Azərbaycan musiqisində multikulturalizm” mövzusunda təqdim edilməsi də təsadüfi deyildi. ”Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər” - deyən Prezident bildirmişdi ki, bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna Mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayırlar. Təsadüfi deyil ki, işğaldan sonra birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış etdilər.

### AZƏRBAYCANIN TARİXİ TORPAQLARINDA BEYNƏLXALQ TƏDBİRLƏR REALLAŞDIRILIR

Bu gün yenə də dünyaya səs salacaq festivalın açılışında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olunub, ölkəmizin müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirilib, Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirilib, klassik musiqi əsərləri təqdim olunub.

Təbiətin gözəl bir çağında hər tərəfin yaşıl, al rəngə boyandığı vaxtda Şuşada təşkil olunan festival səsimizi dünyaya yayır. Dünya görür ki, Azərbaycan xalqı tarixi torpaqlarında beynəlxalq tədbirləri reallaşdırır və bu torpağın əzəməti bir daha təqdim olunur.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Təbii ki, bu uğulu yolda necə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrəniləcəkdir. Bu gün o torpaqlarda keçirdiyimiz tədbirlər bizi qürurladırır. Uzun fasilədən sonra keçirilən ”Xarıbülbül” musiqi festivalı qazandığımız Zəfər sorağıdır. Bu qələbənin qazanılmasında xalq birləşdi, xalq həmrəylik göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi”. Dövlət başçısı onu da bildirib ki, bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi: ”Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi”.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılır. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradılır. Qısa bir zamanda ölkənin Mədəniyyət paytaxtı elan edilmiş Şuşada Vaqif Poeziya günləri və ”Xarıbülbül” festivalı da bərpa olunub. Həqiqətən də Cənab Prezident İlham Əliyevin vurğuladığı kimi, ”Şuşa Azərbaycan xalqının milli sərvətidir”.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏRS BAXIŞ

# “5-ci kolon”un buyruq qulları məqsədlərinə çatmayacaqlar!

*Bənzər təşkilatların arxasında "inqilablar mühəndisi" kimi adlandırılan Corc Sorosun öz bədnam fondu ilə birlikdə dayanması şübhəsizdir*



**Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu yenidən Qərbin bir sıra dairələrini, əsasən də, ABŞ-ın dövlət strukturlarının nəzarəti altındakı müxtəlif xarakterli institutları hərəkətə gətirib. Xüsusilə 44 günlük haqq savaşından qalib ayrılan, eləcə də yalnız Cənubi Qafqazın deyil, bütövlükdə regionun və dünyanın aparıcı mövqelərində söz sahibinə çevrilən Azərbaycanın güclənməsi bu xüsusda həmin institutları narahat edir. Buna görə də, zaman-zaman ayrıca maliyyələr ayırıb, cəmiyyət daxilində qarşıdurma yaratmaq üçün öz ”5-ci kolon”larına müvafiq tapşırıqlar verirlər. Artıq məlumdur ki, növbəti belə bir cəhd həyata keçirilib və bəlli miqdarda ”demokratiya uğrundakı” qrantlar adı altında maliyyə də ayrılıb. Məqsəd - ölkə daxilində itaətsizlik yaratmaq, icazəsiz mitinqlər və aksiyalar keçirmək, bu kimi kampaniyaları tətbiq etmək.**

## Anti-Azərbaycan koalisiyası niyə qıcıqlanır?

Sirr deyil ki, bu kimi oyunbazlıqlar bilavasitə anti-Azərbaycan koalisiyasına aid olan məsələlərdir. Vətən müharibəsindən sonra Azərbaycanın siyasi, diplomatik, iqtisadi, sosial və s. sahələrində uğurlu irəliləyişləri məlum xarici dairələri ciddi şəkildə narahat edir. BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən tutmuş, beynəlxalq təşkilatlarda fəal təşəbbüskarlıq, regionda iqtisadi liderlik Azərbaycanın dünyada nüfuz və reytinqini artırıb. Bura eyni zamanda, öz ordusunu gücləndirmək və 44 günlük Zəfər yürüşündən sonra psixoloji üstünlüyü daha da artırmaq, həmçinin siyasi arenada diktəedici mövqeyə keçməni də əlavə etsək narahatlığın daha hansı səbəblərdən qaynaqlandığını görmüş oluruq.

Yalnız Ermənistanı çıxmaq şərti ilə Azərbaycanın bütün qonşu ölkələrlə münasibətlərin xeyli yaxınlaşdırılması, aparılan uğurlu xarici siyasət nəticəsində çox sayda digər ölkələrin Azərbaycanın mövqeyini dəstəkləməsi və s. faktorlar Bakını dünyanın əsas regional güc mərkəzlərindən birinə çevirib. Bu isə xarici və daxili düşmənlərimizin nədənsə xoşlarına gəlmir. Buna görə də, özlərinin dediyi kimi, ”Azərbaycana yerini göstərmək” üçün hərəkətə keçiblər. Özü də maraqlısı da budur ki, həmi dairələr ən həssas məqamlarda oyunbazlıqlarına başlayırlar.

## Azərbaycana qarşı kimlər hansı kampaniyaya hazırlaşırlar?

İndi də bir jurnalistin məişət məsələsi fonunda hay-həşir qaldıran ”demokratiya carçıları” ”5-ci kolon”un hansı üzvləri tərəfindən necə və hansı formalarda həyata keçirilməsi haqda dəqiq təsəvvür yaratmağa imkan verir. Ortaya çıxan sənədlərə görə, bu kampaniyanın təşkil olunması ABŞ-ın Dövlət departamenti tərəfindən ABŞ-ın National Endowment for Democracy (NED) təşkilatına həvalə edilib. Məlumdur ki, NED uzun illərdir Azərbaycanda ”5-ci kolon”un formalaşdırılması və hakimiyyət çevrilişi planlarının fəal iştirakçılarından biri rolunda çıxış edir. Bu təşkilat vasitəsilə Azərbaycandakı ”tərəfdaş” QHT və media vasitələrinə ABŞ və Qərb mənbələrindən milyonlarla dollar vəsait ötürülüb. Eyni zamanda, bənzər təşkilatların arxasında ”inqilablar mühəndisi” kimi adlandırılan Corc Sorosun öz bədnam fondu ilə birlikdə dayanması şübhəsizdir.

Beləliklə, sözügedən qara qüvvələrin hazırladığı genişmiqyaslı planın detalları haqda mətbuatda məlumatlar yayıldığından burada yenidən təkrar edilməyəcək. Lakin faktlardan biri də budur ki, sözügedən qara kampaniyada anti-Azərbaycan xarakterli beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycanda ”Milli Şura” adlanan ölü qurum, eləcə də ”vətəndaş cəmiyyəti” adı altında pərdələnmiş bəzi QHT-lər, mətbuat vasitələri, sözdə politoloqlar, iqtisadçı ekspertlər və sair ictimai şəxslər cəlb edilir.

## İnsan hüquqları haqqında beynəlxalq taftalogiya və ya boşboğazlıqdan doğan sərsəmlik

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycana qarşı belə bir koalisiyalar dəfələrlə təşkil olunub. Lakin bu kampaniyaların heç vaxt ölkədə dayaqları olmayıb, yoxdur, bundan sonra da olmayacaq. Nüfuzunu itirmiş 5-10 ”ictimai-siyasi xadim”in, xalqın gözündən düşmüş siyasi partiya və qrantyeyən QHT-lərin, dezinformasiya yaymaqla məşhur olan media vasitələrinin icimai rəyə təsir üçün imkanları isə ümumiyyətlə tükənib. Bu gün Azərbaycan xalqı öz Liderinin ətraında sıx birləşməklə Ona olan etimadını vəhdət şəklində nümayiş etdirir.

Və ən əsası, sözügedən həmin ”qüvvələri” nə torpaqlarımız işğal altında olanda, nə də işğaldan sonrakı vəziyyət qətiyyən maraqlandırmayıb. Əldə bayraq etdikləri yeganə məsələ isə boşboğazlıq, sərsəmlik reallığı altında taftalogiya ilə məşğul olmaqdır. Beləliklə, dəfələrlə deyildiyi kimi, bunların idarə olunduqları xarici mərkəzlər əsl hüququ pozulanlarla bağlı susurlar. Məsələn, qaçqın və məcburi köçkünlərimizin hüquqlarının pozulması, insanlarımızın erməni terrorçuları tərəfindən qətlə yetirilməsi və s. Yəni bunların dərdi heç də demokratiya, insan hüquqları-filan deyil. Bunların dərdi öz maraqlarını təsir və təzyiq mexanizmləri vasitələri ilə Azərbaycana qarşı istifadə etməkdir.

## Hakimiyyət və dövlət qarşıda dayanan bütün problemləri həll edir və bundan sonra da edəcək!

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da müəyyən problemlər olur və bunu da dövlət və hökumət rəhbərləri ən yüksək səviyyələrdə etiraf edirlər, onların aradan qaldırılması üçün çevik siyasət mexanizmləri tətbiq edir, ən mümkün və uğurlu vasitələrlə xalqın maraqlarını dəstəkləyirlər. Cinayət əməllərinə, korrupsiyaya və s. qanunsuzluqlara qarşı isə bilavasitə dövlət başçımızın tapşırığı əsasında ən sərt tədbirlər görülməkdədir. Bu kimi məsələlərə yüzlərlə faktları göstərmək olar.

Son olaraq isə bütün bunlardan çıxan qısa nəticə belədir - Azərbaycanın xarici düşmənləri daxili düşmənlərlə ələ-ələ verib ölkəni təsirləri altına salmaq, bundan sonra ondan istənilən güzəştləri əldə etmək, bölgədəki öz planları üçün alətə çevirmək istəyirlər. Bir çox ölkələrdə bunu həyata keçiriblər. Lakin bir faktı unudurlar - Azərbaycan nə Liviya, nə İraq, nə Misir, nə Ukrayna, nə də Latın Amerikası ölkələrindən deyil. Azərbaycan xalqla hakimiyyətin vəhdəti fonunda güclənən bir dövlətdir və belə dövlətləri qətiyyən təsir altında salmaq mümkün deyil. Bu dəfə də belə olacaq və söz yox ki, xarici dairələrlə işbirliyi quran daxili xəyanətkarlar da hüquqün tələb etdiyi bütün əsaslar altında qanun qarşısında cavab verməli olacaqlar!

***Rövşən RƏSULOV***

# MEDİA “Sərhədsiz Reportyorlar” təşkilatına məktub ünvanlayıb

**Azərbaycan Medianın İnkişafı Agentliyi ”Sərhədsiz Reportyorlar” təşkilatına məktub ünvanlayıb. Bu barədə SİA-ya Agentlikdən məlumat verilib. Bildirilib ki, məktubda Təşkilatın ”2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi”nə münasibət bildirilərək, demokratik cəmiyyətin mühüm komponentlərindən biri olan media və ifadə azadlığının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklərə uyğun olaraq tam təmin edildiyi, medianın inkişafının dövlətin prioritet fəaliyyət istiqaməti olduğu vurğulanıb.**

Azərbaycan Prezidentinin müvafiq Sərəncamı əsasında Medianın İnkişafı Agentliyinin yaradılması, media islahatlarının dərinləşdirilməsi, özəl sektoru media ilə əməkdaşlığa cəlb edən böyük layihələrin reallaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi qeyd edilərək, müvafiq beynəlxalq reytinqlər tərtib edilərkən bu müsbət təşəbbüslərin nəzərə alınmamasından təəssüf hissi keçirildiyi bildirilib. Bildirilib ki, 2021-ci ildə ”Sərhədsiz Reportyorlar” Təşkilatının rəsmi vebsaytında xidməti vəzifələrini yerinə yetirərkən ermənilərin Kəlbəcər rayonuna basdırdıqları minaya düşərək həlak olan jurnalistlərlə bağlı məlumatın təhrif edilərək təqdim edilməsi, faciənin əsl səbəbi və mahiyyətinin açıqlanmaması, həmin məlumatın qərəzli olaraq Azərbaycanın əleyhinə istifadə edilməsinə imkan yaratmış və əsassız yanaşmaların formalaşması ilə nəticələnmişdir.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

”2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi” ilə əlaqədar Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya şöbəsinin rəhbəri xanım Janna Kavelyenin ”Amerikanın Səsi” beynəlxalq multimedia xəbər təşkilatına müsahibəsində səsləndirdiyi fikirlər, o cümlədən Azərbaycanın yeni reytinqini əsaslandırmaq üçün irəli sürülən arqumentlər özlüyündə tutarlı əsaslara söykənmir və müvafiq İndeks Azərbaycanda media azadlığının vəziyyəti ilə bağlı obyektiv reallığı əks etdirmir.

Məktubda ”Media haqqında” Qanunun müvafiq maddələri bir daha izah edilir, Azərbaycanda jurnalist fəaliyyətinə görə heç kimin həbs edilmədiyi vurğulanır və istənilən sahədə inkişafın qarşılıqlı hörmətə, konstruktiv əməkdaşlığa, bütün tərəflərin obyektiv, qərəzsiz yanaşmasına əsaslanmalı olduğu bildirilir: ”İnanırıq ki, bir neçə mənbədən, o cümlədən bizim mənbələrdən istifadə edilməsi ”Sərhədsiz Reportyorlar” Təşkilatının təqdim etdiyi xəbərlərin və hesabatların dəqiqliyini, obyektivliyini və etibarlılığını artıracaq, ixtilafa yol açan halları aradan qaldıracaq”. Məktubun sonunda bir daha qeyd edilir ki, Medianın İnkişafı Agentliyi ”Sərhədsiz Reportyorlar” Təşkilatı, eləcə də media sahəsində fəaliyyət göstərən digər təşkilatlarla dialoqa hazırdır.



# Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı - QALİB LİDER!

## İlham Əliyev: "2022-ci il Qarabağda çox geniş miqyasda tikinti-quruculuq ili olacaq"



***Bəli, ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq 44 günlük qələbəmizdən bir il yarımdan çox vaxt keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.***

Bəli, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı - "Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir.

Bir sözlə, may ayının 10-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa şəhərlərinə səfər edərək azad nəfəs alan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.

### VERİLƏN VƏDLƏR, GERÇƏKLİYƏ ÇEVRİLƏN İŞLƏR...

Dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfəri bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz.

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır. Bütövlükdə, bu Qalib Liderin "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözünün təsdiqidir. 2020-ci il noyabrın 8-də Qarabağın tacı olan Şuşamızın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən Müzəffər Ali Baş Komandanımızın bildirmişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günü Füzuli və Şuşa şəhərlərinə səfər etməsi və Şuşadan etdiyi müraciəti bir daha Qalib Liderimizin sözü ilə əməlinin üst-üstə düşdüyünün reallığıdır. Dövlətimizin başçısının da söylədiyi kimi, Heydər Əliyevin ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. "Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik", - deyə Prezident İlham Əliyev qeyd edib.

Prezident səfəri çərçivəsində görülən işlərlə tanış olaraq, iş icraçılarına vacib tövsiyələr verdi. Füzuli şəhərində 180 çarpayılıq xəstəxananın təməlinin qoyulması, "Azərişıq" ASC-nin şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli olan Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı, Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işlərinin davam etməsi, "Qarabağ", "Xarı Bülbül", "Shusha Boutique Hotel"lərində təmir-bərpa işləri, Mehmandarovların malikanə kompleksi, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası, Şuşadakı Şirin su hamamında işlərinin Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Bütün bu görülən işlər ulu öndərin arzuları idi.

Dövlət başçımız İlham Əliyev müraciətində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyərək bildirib ki, ulu öndər ölkənin ən çətin anlarında xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Dahi Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. Öz həyatını xalqa həsr edən ümumilli liderin ən böyük arzusunun Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək olduğunu söyləyən ölkə rəhbərimiz diqqətə çatdırdı ki, onun dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu. Prezident dedi: "Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik... Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən ulu öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm".

### "BİZ AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARI BƏRPA EDƏCƏYİK, BƏRPA EDİRİK"

Dövlət başçımız səfər zamanı bir daha növbəti mesajını verdi, bu mesaj sözü ilə əməlinin üst-üstə düşdüyünün göstəricisidir. Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etdiyini, bütün bölgələrdə quruculuq-bərpa işlərinin sürətlə getdiyini, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparıldığını vurğulayan ölkə rəhbəri, əslində, şəhərlərin, kəndlərin yenidən qurulduğunu bildirdi: "Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik".

Bir övlad olaraq ümummilli liderin ad günündə Şuşada olmaqdan qürur duyan Azərbaycan Prezidenti müraciətində bildirdi: "Bu gün - mayın 10-da mən mütləq burada olmalı idim. ulu öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bir sözlə, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa rayonlarına növbəti dəfə səfər etməsi ilə Azərbaycan xalqı bir daha əmin oldu ki, ən qısa zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yenidən cənnət məkanına çevrilərək orada həyat canlanacaq.

***RƏFİQƏ KAMALQIZI***





# Şuşaya tur təşkil edənlər NİYƏ ÖZ CİBLƏRİNİ GÜDÜR?

***Hər kəsin işğaldan azad olunmuş rayonlarımıza gedib, oranı görməsi üçün dövlət tərəfindən rəsmi olaraq turlar təşkil edilib. Həmin biletləri demək olar ki, hər kəs müəyyən zaman çərçivəsində əldə edə bilər. Lakin son zamanlar bəzi saxtakarlar bu haldan sui-istifadə edərək öz başına fantastik rəqəmlərlə bilet satışı ilə məşğul olurlar. Bununla yanaşı vətəndaşlarımız da həmin insanlara inanıb öz pullarını bir növ çölə atmış olurlar. Bəs bu proses necə olmalıdır? Bu insanların qarşısını almaq üçün nə kimi tədbirlər görülür? Bütün bu suallara cavab tapmaq məqsədi ilə SİA olaraq ekspertlərdən və Dövlət Nəqliyyat Xidmətindən məlumat aldıq.***




**Millət vəkili Razi Nurullayev:** "Hər zaman ürəyimi ağrıdan mə-



sələ budur ki, ən xoş və ülvi hisslər və düşüncələr üzərində qurulan bir prosesi belə rüşvət üzərinə çevirməyi bacarırlar. Qarabağa turların və avtobusların təşkil olunmasında əsas məqsəd işğaldan azad edilən torpaqlarımızı görmək mahiyyəti daşıyır. Bununla əlaqədar olaraq biletlər satılır və hər kəs bu biletləri əldə etmək hüququna malikdir. Lakin belə bir fakt meydana gəlib ki, bir çox dələduz hər hansısa bir yolla biletləri alıb baha qiymətə insanlara satırlar. Bu nəinki yolverilməz bir haldır, eyni zamanda da şəhid olan insanlarımıza qarşı edilən hörmətsizlikdir. Nəyə görə şəhid ailəsi və ya qazilərimiz ümumilikdə o torpaqlara qəlbi ilə bağlı olan insanlar 45-50 manata bilet alıb həmin torpaqlara səfər etməlidirlər. Bu ən böyük cinayətdir. Mən hesab edirəm ki, bu cinayəti edənlərin çox ciddi şəkildə izinə düşüb, onlarla bağlı tədbirlər görülməlidir".

**İqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov:** "Bir müddət öncə işğaldan azad olunmuş ərazilərimizə qeyri-qanuni bilet satışı ilə məşğul olanların aşkar edilməsi



və onların cinayət məsuliyyətinə cəlb edilməsi barədə məlumatlar yayıldı. Təbii ki, bütövlükdə turlar rəsmi olaraq dövlət tərəfindən təşkil olunur. Nəzərə almaq lazımdır ki, burada sadəcə biletlərin satışı məsələsi deyil, eyni zamanda həmin turlarda iştirak etmək istəyən vətəndaşlarımızın təhlükəsizliyi məsələsi də çox önəmlidir. Çünki həmin ərazilərimizdə kifayət qədər çoxlu sayda mina var. Bu da təbii ki, birmənalı şəkildə səfərlərdəki təhlükəsizlik məsələsini daha da prioritetləşdirir. Bu kontekstdən turlar rəsmi olaraq təşkil olunduğu üçün də təbii ki, vətəndaşlarımızın da məhz rəsmi satış məntəqələrindən biletlər alması və turda iştirak etməsi vacibdir. Təbii ki, minaların sayı azaldıqca ümumilikdə turların sayı artacaq. Həmçinin məskunlaşma prosesinə uyğun olaraq intensiv işlər görülür ki, burada əsas məqsəd insanların öz ata-baba yurdlarına qayıdışını tez bir zamanda təmin etməkdir".

**Dövlət Avtomobil Nəqliyyat Xidməti:** "Sosial şəbəkələrdə bəzi turizm şirkətlərinin Bakı - Şuşa istiqamətində turlar təşkil etməsi ilə bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti araşdırma aparıb. Məlum olub ki, aprelin 26-da Şuşa və Ağdam istiqamətində müntəzəm avtobus reyslərinə may ayı üzrə biletlər satışa çıxarılandan sonra bir neçə şəxs Əhmədbəyli - Şuşa - Əhmədbəyli reysinə müxtəlif şəxslərin adına müxtəlif tarixlərə, lakin qrup şəklində biletlər alıb. Araşdırma nəticəsində həmin istifadəçilərin kimliyi müəyyən edilib və onlar Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə dəvət olunublar. Həmin şəxslər etiraf ediblər ki, sosial şəbəkələrdə Şuşaya turların təşkil edilməsi ilə bağlı elanlar yerləşdirərək, əvvəlcədən vətəndaşlardan şəxsiyyət vəsiqələrinin surətlərini alıblar. Biletlər satışa çıxarılandan sonra möhtəkirlər şəxsiyyət vəsiqələrinin surətlərini onlara təqdim edən bir neçə nəfərin adına www.yolumuzqarabaga.az saytı üzərindən Əhmədbəyli - Şuşa - Əhmədbəyli reysinə birbaşa vətəndaşların adına biletlər alıblar. Bakıdan Əhmədbəyli istiqamətinə xüsusi avtobus reysi təşkil edərək bilet aldıqları vətəndaşları həmin ərazidə Əhmədbəyli - Şuşa - Əhmədbəyli müntəzəm marşrutu üzrə hərəkət edən avtobusa transfer edirlər. Onlara belə fəaliyyəti birmənalı dayandırmaları haqqında ciddi xəbərdarlıq edilib. Artıq həmin elanlar şirkətlərin sosial şəbəkə hesablarından silinib.

Məlumat üçün bildiririk ki, biletləri kimlərinsə alması və daha sonra digər şəxslərə satması və ya ötürməsi mümkün deyil. Vətəndaşlar bilet almaq üçün şəxsiyyətini təsdiq edən sənəddəki məlumatları sistemə daxil etməlidirlər. Hər bir bilet yalnız şəxsiyyət vəsiqəsi ilə eyniləşdirilən vətəndaş tərəfindən istifadə oluna bilər. Biletlər alındıqdan sonra başqa şəxsə transfer edilməsi mümkün deyil. Onu da qeyd edək ki, bilet sistemi müvafiq dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya edilib və sərnişinlərə biletlə birlikdə işğaldan azad olunmuş ərazilərə giriş icazəsi də verilir. Bu icazə yalnız bilet almış şəxs üçün keçərlidir və ötürülməsi mümkün deyil.

Dövlət Avtomobil Nəqliyyatı Xidməti vətəndaşlara tövsiyə edir ki, belə elanları ciddi qəbul etməsinlər, öz sənədlərini elanlarda gördükləri əlaqə vasitələrinə göndərməsinlər və biletlərin alınmasını heç kimə əlavə vəsait ödəmədən özləri həyata keçirsinlər. Vətəndaşlar qanunsuz bilet satışı halları ilə rastlaşarlarsa, bu barədə office@danx.gov.az elektron poçt ünvanı, https://www.facebook.com/AzDANX rəsmi "Facebook" ünvanı və (+99412) 566 52 58 telefon nömrəsi vasitəsilə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə məlumat verməléri xahiş olunur.

Qeyd edək ki, may ayından etibarən Bakı - Şuşa - Bakı istiqamətində həftədə 3 dəfə deyil, 4 dəfə - cümə axşamı, cümə, şənbə və bazar günləri reyslər həyata keçirilir.

Əhmədbəyli - Şuşa - Əhmədbəyli istiqamətində isə həftənin 3 günü - bazar ertəsi, çərşənbə axşamı, çərşənbə günləri səfər etmək mümkündür.

Beləliklə, həftənin bütün günləri Şuşa istiqamətində reyslər həyata keçirilir.

Sərnişin daşınması ilə bağlı sistemliliyin təmin edilməsi və məlumat bazasının formalaşdırılması, eləcə də şəffaflığın və rahatlığın təmin edilməsi məqsədilə marşrut xətləri üzrə bilet satışı yalnız www.yolumuzqarabaga.az portalı üzərindən onlayn qaydada həyata keçirilir".

***Banuçiçək Hüseynli***

---

# Nikol Paşinyan

## hakim qarşısına çıxarılır..?

**Ermənistanda baş nazir Nikol Paşinyan Dağlıq Qarabağda ermənilər üçün fəlakətli nəticələrə gətirib çıxaran müharibənin səbəblərinə "aydınlıq" gətirmək üçün şahid qismində dindiriləcək. Deyim ki, bu barədə ölən hərbçilərin valideynlərinin vəkili Vaan Ovannisyan bildirib. Ovannisyanın sözlərinə görə, dindirilmə gələn həftə gözlənilir.**



Vaanın dediyinə görə, Ermənistanın Baş Prokurorluğu həlak olan hərbçilərin valideynlərinin vəsatətini təmin edib. Buna görə də, Ermənistanın baş naziri hərbi istintaq idarəsində şahid qismində dindirilməsi gözlənilir. Vəkilin dediyinə görə, "bütün valideynlər dindirilib və onlar qurbanlar kimi tanınıblar".

Qeyd edək ki, bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın erməni müxalifətinin Qarabağ məsələsi ilə bağlı danışıqların nəticəsiz qalması ilə bağlı ittihamlarına cavab verdiyi də bildirilib. Onu da qeyd edək ki, bir müddət bundan əvvəl "Daşnaksütyun" partiyasının "Hayastan" blokundan olan deputatı Armen Rüstəmyan Paşinyanı "danışıqların uğursuzluğunda ittiham" edərək, müxalifətin onun və komandasının istefa tələbini oxuyub.

Baş nazir Paşinyan isə buna cavab olaraq Azərbaycanla danışıqlar prosesinin hələ ondan qabaq eks-prezident Serj Sarkisyanın vaxtında iflasa uğradığını onlara xatırladıb. Onun müharibəni dayandıra biləcəyi ilə bağlı ittihamlara gəlincə, baş nazir xatırladıb ki, hərbi əməliyyatlar başlayan gün, 2020-ci il sentyabrın 27-də o parlamentin tribunasından müharibənin hansı şərtlə dayandırılacağını dilə gətirib: Dağlıq Qarabağın Azərbaycanın tərkibinə qaytarılması.

Paşinyan indi onu "danışıqlardakı uğursuzluğuna" görə ittiham edənlərə xatırladıb ki, hələ o vaxt Ermənistan tərəfi danışıqların Madrid prinsiplərinə razılıq verməklə Dağlıq Qarabağın Azərbaycanın tərkibində olmasını tanımışdı. O hətta həmən ərəfədə indi "canfəşanlıq" edən "Daşnaksütyun" partiyasının da koalisiyada olduğunu onlara xatırladıb.

Yeri gəlmişkən, bir də xatırladaq ki, Madrid prinsipləri Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün ATƏT-in Minsk qrupu tərəfindən hər iki tərəfə təklif olunan sülh modeli idi və bu model münaqişənin həll edilməsində ən ideal sülh planı hesab olunurdu. Madrid prinsiplərinə əsasən Ermənistan tərəfdən işğal edilmiş və "Dağlıq Qarabağ Muxtar Vilayəti"nə daxil olmayan 7 rayon Azərbaycana qaytarılmalı, daha sonra isə "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin statusu müəyyən olunmalı idi. İndi, belə görünür ki, daha bunlara ehtiyac olmayacaq. Çünki həmişə olduğu kimi o vaxt da sonradan buna "dağallıq" edən ermənilər, deyəsən, indi həmən günlərin həsədini çəkirlər. Amma Nikolun bütün bunları ermənilərə bir daha xatırlatması elə də pis hal kimi qəbul edilməməlidir.

...Sonda xatırladaq ki, aprelin sonundan bəri İrəvanda Paşinyanın istefası tələbi ilə etiraz aksiyaları hələ də davam edir. Bununla bağlı erməni türmələri də "şişməkdə" davam edir. Deyilənə görə, ötən günlərdə saxlanılanların sayı 200 nəfərə yaxın olub.

***Ağasəf Babayev***

# Böyük Qayıdış və təhsilimiz




**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Milli Ordumuzun Vətən Müharibəsində qələbəsi Zəfərimiz olaraq tarixə yazıldı. Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoyub. Biz artıq işğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır.**

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərimiz dağıdılmış, tarixi dini mədəniyyət ocaqlarımız xarabazarlığa çevrilmişdir. İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib. Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb. Hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad olunan ərazilərdə təhsil ocaqlarının tikintisidir. İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Şuşada inşa olunan 1 nömrəli məktəbin tikintisi davam edir. Məktəbin tikintisi cari ilin dekabr ayında yekunlaşacaq. Eləcə də Ağdam şəhərlərində məktəb tikintisi davam etdirilir. Hər iki şəhərdə ümumilikdə 960 şagird yerlik təhsil müəssisələri inşa olunur. Zəngilan rayonunun Ağalı kəndində isə həyata keçirilən "Ağalı kənd" layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəb inşa olunur.

Bu gün ümumtəhsil orta məktəblərilə yanaşı, müasir çağırışlara cavab olaraq peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Prezident İlham Əliyevin 2016-cı il aprelin 20-də imzaladığı Fərmanla Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ölkəmizdə peşə təhsilinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması baxımından mühüm addım oldu. Daha sonra Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktların qəbul olunması, peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması da Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

Bu günlərdə Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər çərçivəsində Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlini qoyublar. Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası da quraşdırılacaq. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq.

Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq.

Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına əhəmiyyətli təsir göstərir.

Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

***Zümrüd BAYRAMOVA***

# Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasında növbəti görüş keçirilib



Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya sədrləri ilə görüşləri artıq iki ildir davamlı şəkildə təşkil olunur. Növbəti görüş mayın 11-də Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ilə keçirilib. Bu barədə AZƏRTAC-a Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər.

Görüşdə şöbə müdiri Ədalət Vəliyev dünyada cərəyan edən geosiyasi proseslərin ölkədə siyasi həmrəylik mühitinin qorunmasını şərtləndirdiyini xüsusi vurğulayıb. "Bilavasitə milli maraqlara cavab verən məsələlərdə siyasi partiyalar ilə əməkdaşlıq ölkədə reallaşan siyasi dialoqun prioritet istiqamətlərindən biridir", - deyən Ədalət Vəliyev qeyd edib ki, Azərbaycana qarşı aparılan informasiya təxribatları ilə mübarizədə siyasi partiyaların bütün potensialları səfərbər olunmalıdır. 1992-ci ildə yaradılmış Azərbaycan Milli İstiqlal Partiyasının Avropa Xalq Partiyası da daxil olmaqla geniş beynəlxalq əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edən şöbə müdiri bildirib ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mövcud əlaqələrdən səmərəli şəkildə istifadə olunmalıdır.

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşmasını yüksək qiymətləndirib, bu prosesin demokratik dəyərlərin möhkəmləndirilməsi, siyasi mədəniyyətin yüksəlməsinə xüsusi dəstək olduğunu bildirib. O, ölkədə bütün siyasi qüvvələrin ümummilli məsələlərdə, dövlətçiliyin möhkəmlənməsində bir güc kimi olmasının vacibliyini qeyd edib.

Görüşdə digər məsələlərlə yanaşı, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbədən sonra regionda yaradılmış yeni reallıq mövzusu da geniş müzakirə olunub. Bildirilib ki, qazanılmış Qələbə və ölkənin müxtəlif iqtisadi təşəbbüsləri sayəsində Azərbaycanın dünya siyasi xəritəsində çəkisi əsaslı şəkildə artıb. Dayanıqlı inkişaf naminə iqtidar-müxalifət münasibətlərinin məhz konstruktiv əməkdaşlıq formatında inkişaf olunması üçün qarşılıqlı səylər artırılmalıdır. Bu cür əməkdaşlıq formatı əldə olunmuş uğurların qorunmasına xidmət edəcək və təhdid xarakterli müxtəlif təxribatların qarşısının alınmasına da töhfə verəcək.

Administrasiya rəsmisi Azərbaycan Milli İstiqlal Partiyasının ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunda fəal iştirak etməsini, o cümlədən ümummilli məsələlərlə bağlı birgə bəyanatlara və müraciətlərə qoşulmasını, siyasi partiyaların birgə iclaslarında və azad olunmuş ərazilərə birgə səfərlərdə iştirakını, siyasi partiyalar haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verməsini, həmçinin Mərkəzi Seçki Komissiyasına maliyyə hesabatlarının vaxtında və tələb olunan qaydada təqdim etməsini yüksək qiymətləndirib və bu halların partiyanın imicinə müsbət təsir edən önəmli amillər olduğunu bildirib. Söhbət zamanı Arzuxan Əlizadə rəhbərlik etdiyi partiyanın 30 illik yubileyi ilə əlaqədar müvafiq tədbirlərin keçirilməsinə hazırlaşdıqlarını qeyd edib.

# Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında görüş olub

Dünən Düşənbə şəhərində MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov və Ermənistan Respublikasının



xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, görüşdə tərəflər, bölgədə mövcud olan vəziyyət və üçtərəfli bəyanatların yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, o cümlədən dövlət sərhədinin delimitasiya prosesinin başlaması, bütün nəqliyyat və kommunikasiya xətlərinin açılışı, iki dövlət arasında sülh müqaviləsinin razılaşdırılması məsələləri üzrə fikir mübadiləsi aparılıb. Tərəflər, bölgədə sülh və təhlükəsizliyin təmin olunması naminə əldə edilmiş razılaşmaların icrasının vacibliyini vurğulanıb.

# Şanlı tariximizin canlı salnaməsi



**Tarix salnamədir. Bir-birini əvəz edən hadisələri ardıcıllıqla kitablarda əbədiləşdirən salnamə. Tarixdə çox sayda salnamələr diqqətimizi cəlb edib. Axtarmışıq, tapmışıq, oxumuşuq, məlumatlanmışıq. Əsrlər öncə baş verən tarixi hadisələrin xronikasını salnamələr vasitəsilə əxz etmişik. Salnamə deyiləndə gözlərimiz qarşısında qalın-qalın tarix kitabları canlanıb. O kitablar ki, öyrənmək istədiyimiz hadisə yalnız onun səhifələrində salnaməsləşib. Lakin tarix bizə salnaməni tək kitablarda yox, canlı şəkildə görməyi, oxumadan öyrənməyi, dinləməklə əxz etməyi də nəsib etdi.**

İkinci Qarabağ Müharibəsi bizim şanlı tariximiz, bu müharibənin yenilməz, qüdrətli sərkərdəsi, ölkəmzin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bu şanlı tarixin canlı salnaməsidir. Həm 44 günlük müharibə, həm 18 illik dövlət başçısı kimi fəaliyyəti dövrünün, eynilə də həm Birinci Qarabağ Müharibəsi, həm də bu müharibəyə səbəb olan amillərin gedişatını, xronikasını özündə əks etdirən canlı salnamə. "Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycan xalqı öz ordusuna dayaq oldu, arxa oldu, bütün Azərbaycan vətəndaşları birləşdi, bütün dünya azərbaycanlıları birləşdi. Bir yumruq kimi birləşdik və düşmənə elə sarsıdıcı zərbələr endirdik ki, bu günə qədər də özünə gələ bilmir. Ermənistan ordusu 44 gün ərzində tamamilə məhv edilmişdir. Ermənistan ordusunun qalıqları bu gün Bakının mərkəzində, Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Vaxtilə Ermənistan rəhbərliyi bizi yeni müharibə ilə hədələyirdi. Deyirdilər ki, əgər Azərbaycan hərbi yolla bu məsələni həll etmək istəsə, erməni tankları Bakının küçələrində olacaq. Bəli, erməni tankları Bakının küçələrində oldu, biz onları məhv edilmiş vəziyyətdə gətirdik. İndi o tanklar, digər toplar və texnika Hərbi Qənimətlər Parkında nümayiş etdirilir",- deyən dövlətimizin başçısının bütün nitqləri, çıxışları, kəlamları salnamədir. Xronoloji ardıcıllıqla tamamlanan salnamə.

## Yaxşı ataların yaxşı oğulları

Mən həmişə yazılarımda yazmışam, yenə də yazıram: yaxşı ataların yaxşı oğulları olur. Cənab İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin mənəvi və siyasi varisidir. Əsl azərbaycanlı, xalqını candan artıq sevən, vətənpərvər insan, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən ulu öndərimizin. Elə buna görə də xalq Onu özünə ümummilli lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

Çox təbii ki, belə bir Liderin övladı da cənab İlham Əliyev olacaqdı. Torpaqlarımızın azad olunması ilə bağlı ata vəsiyyətini reallaşdıran yaxşı oğul və dövlətçilik qabiliyyəti, idarəetmə bacarığı, siyasi-hərbi savadı ilə dünyanın həsəd apardığı lider.

I Qarabağ müharibəsi nə zamansa II Qarabağ müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün ulu öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 gün... Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi an... 10 noyabr 2020-ci il. "Qarabağ" dastanının yazıldığı gün. Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun Azərbaycan tarixində yazdığı yeni salnamə...

## Zaman insanları tanıdır, onların fərqlərini ortaya qoyur

İkinci Qarabağ Müharibəsində Zəfərin qazanılma səbəbi Vətən sevgisi oldu. Çünki Vətənə sevgi, torpağa məhəbbət, xalqa dəyər olmadan belə bir salnamə yazıla bilməzdi. Biz Birinci Qarabağ Müharibəsinin canlı şahidi olmuşuq. Onun başvermə səbəbi də bugünkü kimi gözlərimiz qarşısındadır. Səbəbkarlarda isə Vətən sevgisindən, torpağa, xalqa, insanlara məhəbbət hissindən əsər-əlamət yox idi. Elə bu səbəbdən də torpaqlarımız asanlıqla bir-birinin ardınca satıldı. Heç bir xəcalət hissi olmadan, bu torpaqların bütöv bir xalqa mənsubluğu nəzərə alınmadan asanlıqla satıldı. Düşünülmədən satıldı. Düşünülmədi ki, tarixin torpaq satanlar, Vətən xainləri deyə bir səhifəsi açılır. Elə bir səhifə ki, əsrlər sonra da vərəqləndikcə bu ləkə görünəcək, ondan söhbət açılacaq.

Nə yaxşı ki, zaman insanları tanıdır, onların fəqlərini ortaya qoyur. Birinci Qarabağ Müharibəsində itirdiklərimizin, İkinci Qarabağ Müharibəsində qazandıqlarımızın səbəbləri də bu fərqdədir. Zaman bu fərqlə tarixin səhifələrini yazır. Kimi bu tarixin qara səhifələrinə düşür, kimi isə şanlı səhifələrdə əbədilik qazanır.

Ali Baş Komandanımızın rəhbərliyi ilə Milli Ordumuz Birinci Qarabağ Müharibəsində satılan torpaqları, erməni işğalında bir qərinəyədək əsarətdə olan ata-baba ocaqlarımızı azad etdi. 44 günlük Vətən müharibəsində Vətənin səsinə səs verən gənclər bu dövlətin gənc nəslin yetişdirilməsində zəhmətini ortaya qoydu. Vətənpərvərlik hissinin aşılanmasının nəticəsinin qələbə olduğunu açıqladı. Prezident cənab İlham Əliyev: Biz cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi düşmənin əlindən aldıq, döyüş meydanında bu Zəfəri qazandıq, danışıqlar yolu ilə yox, kiminsə güzəşti ilə yox, qan tökərək, şəhidlər verərək. Bizi irəliyə nə aparırdı? Vətən sevgisi, Vətənə sevgi, düşmənə nifrət! Bax, biz gənc nəsli bu əhval-ruhiyyədə yetişdirmişik, bu əhval-ruhiyyədə bizim ordumuz yetişib və ordumuzun ən döyüşkən birləşməsi olan xüsusi təyinatlılar bu amalla, bu ideya ilə irəliyə gedirdi, öz sinəsini qabağa verirdi.

Milli Ordumuzun dünyaya yayılan qüdrəti ordu quruculuğuna illərin sərf olunduğunu göstərdi. Xalqın həmrəyliyi xalq-dövlət birliyinin nə qədət əhəmiyyətli məsələ olduğunu izhar etdi. Şanlı tariximizin Zəfəri olan Vətən Müharibəsi onun canlı salnaməsi olan dövlət başçısının həm hərb, həm söz meydanında eyni hünərlə vuruşduğunu göstərdi.

## Həm hərb, həm söz meydanında

Cənab Prezidentimiz Azərbaycan tarixinə adı ilə bağlı bu sözləri yazdı: müharibə, müsahibə, müraciət. Ölkəmizin başçısı ordumuza Ali Baş Komandanlıq etməklə yanaşı, həm də dünyanın bizə qarşı yönəlmiş informasiya müharibəsinin qəhrəmanı oldu 44 günün hər anında. Xalq öz sərkərdəsini iki geyimdə-rəsmi və hərbi geyimdə gördü 44 gündə. Hərbi geyimdə müharibə bölgələrində, müharibədən ziyan çəkmiş insanların yanında, rəsmi geyimdə kütləvi informasiya vasitələri qarşısında. 44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı. Özünəməxsus nitqi, səbri, haqsız, ədalətsiz suallara hər dəfə eyni təmkinlə cavab verməsi, müxtəlif dillərdə sərbəst, qüsursuz danışıq qabiliyyəti ilə dünya siyasətçilərini və jurnalistlərini heyrətləndirən cənab İlham Əliyev bütün bunların fonunda Azərbaycanın necə bir dövlət olduğunu təsdiqləməklə yanaşı, ulu öndərin layiqli övladı olduğunu da sərgilədi. Xalqına dəfələrlə müraciət etməsi ölkəmizin rəhbərini xoş xəbər müjdəçisi etdi insanların gözündə. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Azərbaycanda belə bir misal var: o yerdə ki, ağsaqqal var, orada Allah var.

Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi.

## 300 min ilin sərkərdəsi

"Qarabağ Ermənistandır və nöqtə" deyən düşmənə dövlətimizin başçısı "Qarabağ Azərbaycandır" dedirtdi. Bu heç də asanlıqla başa gəlmədi. Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq istəyində olub, birinci mərhələdə torpaqlarımızın bir qismini işğal edib, onu 30 il əsarətdə saxlayan, ikinci mərhələdə isə yeni torpaqlar iddiasında olan erməniləri mat vəziyyətinə salmaq, onların arzularını alt-üst etmək illərin zəhməti hesabına başa gəldi. Torpaqların azad olunması üçün illərlə danışıqlar aparıldı, bu, nəticəsiz qaldı. Danışıqlarla yanaşı paralel şəkildə ordu quruculuğu, vətənpərvər gənclərin yetişdirilməsi işi həyata keçirilməsəydi, torpaqlarımız bu gün geri alına bilərdimi? Xalqla dövlət bir olmasaydı, bu Zəfərə gücümüz çata bilərdimi? İnsanların dövlətimizə qarşı inamına bütün dünya şahid oldu. Şahid oldu ki, Tərtərdə, Bərdədə, Gəncədə evləri dağıdılan yüzlərlə insan Prezidentə arxalandıqlarını bildirdilər. Evlərinin dağılmasına, həyatlarının təhlükədə qalmasına baxmayaraq yurdlarını tərk etmədilər, qələbə əzmi ilə yaşadılar. Bu, rəhbərə inam, Onun arxasında olmaq deməkdir. Onlar bir də buna əmin idilər ki, evləri, həyətləri əvvəlkindən də gözəl vəziyyətdə onlara qaytarılacaqdır. Çünki bu insanlar cənab Prezidentimizin verdiyi sözlərə əməl etdiyinin şahidi olan insanlardır.

Ali Baş Komandanımız İkinci Qarabağ Müharibəsində Azərbaycanın 300 min illik sərkərdəsi, qəhrəmanı oldu. Səfəvilər dövlətindən sonra işğal edilən torpaqları azad edən ilk lider, ilk sərkərdə oldu. Şanlı tariximizin canlı salnaməsi Ali Baş Komandan: İkinci Qarabağ müharibəsindən ilyarım keçib. Hərbi ekspertlər, bu məsələ ilə, münaqişələrlə məşğul olan insanlar bu günə qədər Azərbaycan Zəfəri haqqında danışırlar və mənə bu məsələ ilə bağlı, müharibə ilə, Zəfərimizlə bağlı çoxsaylı suallar verilir. Nə, hansı amillər bu Qələbəni şərtləndirdi? Onların arasında birinci Vətən sevgisidir... "Öldü var, döndü yoxdur" deməyə vadar edən Vətən sevgisi idi və biz bunu nümayiş etdirdik. Bütün dünyaya nümayiş etdirdik ki, biz böyük xalqıq və müharibəni biz ləyaqətlə aparmışıq. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bizim şəhər və kəndlərimizi namərd atəşə tutmuşdur. Yüzdən çox dinc insan, onların arasında uşaqlar, qadınlar bu namərd atəş altında öz həyatlarını itirdilər. Biz isə ləyaqətlə müharibəni apardıq və müharibə zamanı mən deyirdim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Biz mülki vətəndaşlarla heç vaxt vuruşmamışıq və vuruşmayacağıq. Azərbaycan xalqının ülvi keyfiyyətləri bizə imkan verməz və belə də oldu. Bütün dünya bunu etiraf edir ki, azərbaycanlılar ləyaqətlə vuruşdular, kişi kimi vuruşdular, düşməni qovdular, diz çökdürdülər və öz sözlərinə əməl etdilər.

## Biz müharibə istəmirik, tarixi ədaləti bərpa etdik

Prezident İlham Əliyev: "Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq. Tarixi ədaləti bərpa etdik. Xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirdik".

Azərbaycan xalqı heç vaxt müharibə istəməyib. Tarix də göstərib, zaman da sübut edib ki, bu xalq hər zaman qonşuları ilə səmimi, mehriban şəkildə yaşayıb. Kiminsə torpağında, malında-mülkündə gözü olmayıb. Gözütoxluq, alicənablıq, qonşuluq mədəniyyəti bu xalqın mentalitetidir. Varlığından əsrlər ötüb, bu keyfiyyətlər olduğu kimi nəsillərdən-nəsillərə daşınıb. Bu xalqın övladları həmin mənəvi dəyərlərlə qidalanıb böyüyüblər. Bütün bunlarla yanaşı isə milli kökümüzdə Vətən sevgisi, torpaq məhəbbəti də yuxarıda sadaladıqlarım keyfiyyətlər qədərindədir.

Beləliklə biz nə qədər səmimi, mehriban olsaq da, torpaqlarımızın işğalına biganə yanaşa bilməzdik. Torpağımıza əl uzadanın qolunu kəsib, ürəyini çıxarıb, gözünü dağlayarıq. Çünki torpaq bizə görə namusdur, şərəfdir. Namusumuzu, şərəfimizi isə heç kimin ayaqlamasına izn verməzik. Bu, bizim qanımıza, canımıza hopmuş milli dəyərdir. Şanlı tariximizin canlı salnaməsi olan dövlət başçısı çıxışlarında Zəfərimizi hər dəfə milli mənliyimizin, ləyaqətimizin xilası adlandırır. Bunu dinləyən, dinlədikcə də əxz edən hər bir azərbaycanlı, xüsusilə gənc nəsil bu ruhla tərbiyə olunur. Deməli, sabahımız bu günümüzdən də uğurlu olacaq. Çünki biz müasir tariximizi kitablardan oxumuruq, onu hər gün, hər an canlı dinləyirik. Bu canlı salnamə isə zamanla yazılı salnaməyə çevrilir. Elə bir salnaməyə ki, tarixin hansı dönəmində oxunsa, o canlılıq duyulacaq. Çünki Azərbaycan xalqı bundan böyük tarixi hadisə yaşamayıb.

***Mətanət MƏMMƏDOVA***

---




# ""Xarıbülbül" festivalının keçirilməsi həqiqətən də tarixi əhəmiyyətə malikdir"

**"Şuşada növbəti "Xarıbülbül" festivalının keçirilməsi həqiqətən də tarixi əhəmiyyətə malikdir. Çünki "Xarıbülbül" festivalı Azərbaycan tarixinin ən mühüm mədəniyyət hadisələrindən biridir". Bu fikirləri Milli Məclisin deputatı Kamran Bayramov bildirib.**

Onun sözlərinə görə, bu hadisəni uzunmüddətli siyasi-ideoloji mübarizənin məntiqi yekunu olan tarixi qələbənin təntənəsi kimi qəbul etmək olar: "30 illik işğaldan sonra ötən il keçirilən ilk "Xarıbülbül" festivalı bir sıra mühüm mesajlarla yadda qaldı. Çünki həmin festivalda Ali Baş Komandan İlham Əliyev çıxış etdi və festival dünya ictimaiyyətinə bu torpaqların əsl sahibinin kim olduğunu göstərdi. Eyni zamanda "Xarıbülbül" festivalının proqramı və məzmunu milli birlik, həmyəylik, tarixi və milli ənənələrə sədaqət kimi dəyərlər üzərində qurulduğunu göstərdi. Ümumiyyətlə festival Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyətini, musiqi və rəqs ənənələrini nümayiş etdirdi. Azərbaycanda dini və etnik tolerantlığın yüksək səviyyədə olduğunu və yüksək səviyyədə qorunduğunu göstərdi. Çünki tolerantlıq bizim mühüm dəyərlərindən biridir. Eyni zamanda Şuşaya olan bu cür diqqət təbiidir. Cənab Prezidentin dünənki Şuşa səfəri bir daha onu göstərdi ki, Şuşa öz sahiblərinə qayıdıb. Şuşa əvvəlki tarixi görkəminə qayıdıb. Hər birimizin qürur hissi duyduğu bu hadisələr gələcəkdə də davam edəcək. Bütün bu tədbirlərin, eyni zamanda bu festivalların, poeziya gecələrinin, beynəlxalq səviyyəli tədbirlərin, komitə iclaslarının Şuşada təşkil olunması mədəniyyətimizin beşiyinə, Qarabağın incisinə olan qiddətin, qayğının nəticəsidir. Ölkə başçısının rəhbərliyi ilə qısa bir zamanda Şuşa tam bərpa olunacaq, dirçələcək. Hər bir azərbaycanlı, qonaqlar, turistlər Qarabağımızın incisinə səfər edə biləcəklər".

***Abutel İlhamqızı***

# DİQQƏT:

## Bu məhsullarda bahalaşma olacaq?



**"Rusiya-Ukrayna müharibəsi fonunda bir çox məhsullarda bahalaşma gözlənilir". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov bildirib. Onun sözlərinə görə, marketlərə də diqqət göstərsək görərik ki, bu bahalaşmalar mövcuddur: "Xüsusilə Rusiya və Ukraynadan tədarük etdiyimiz məhsullar yağ, qənd məhsullarıdır. Həmçinin tədarük etdiyimiz məhsullara dənli bitkilər də aid edilir. Dənli bitkilərdə hələ ki, qiymət artımı müşahidə edilmir.**

Düşünürəm ki, belə davam edərsə, yaxın 6 ay ərzində Dövlət Taxıl Fondunda hər hansı bir çatışmamazlıqlar yaranarsa bu sahədə də bahalaşmanın proqnozunu verə bilərik. Bundan əlavə tütün məhsullarında da bahalaşma müşahidə olunur. Bu da Rusiya-Ukrayna müharibəsi ilə əlaqədardır. Çünki bir çox xam mallar Rusiya və Ukraynadan idxal edilirdi. Buna görə də bahalaşma qaçılmazdır. Fikir versək görərik ki, marketlərdə artıq yağ, qənd kimi məhsullarda bahalaşma gedir".

***Abutel İlhamqızı***

# "Qida zəncirinin pozulması insan sağlamlığına zərər verir"

"Ötən günlərdə hər kəsə məlum olduğu kimi, çörəyin içərisindən bolt tapılıb. Təbii ki, burada artıq qida təhlükəsizlik məsələlərinə əməl olunmaması və eyni zamanda qida məhsulunun fiziki çirklənməsindən söhbət gedir". Bu sözləri SİA-ya açıqlamasına sağlam qidalanma üzrə mütəxəssisi Məshəti Hüseynova bildirib. Onun sözlərinə görə, bu halların baş verməməsi üçün yaxşı olar ki, istehsalçı şirkətlər mütəmadi olaraq sanitar-gigiyena qaydalarına əməl edərək, qida məhsullarının istehsalını həyata keçirsinlər: "Həmçinin bu kimi təhlükələrin yarana biləcək hallarını öncədən aşkarlayıb qarşını alsınlar. Bununla yanaşı, işçi heyətini də mütəmadi olaraq məlumatlandırmalıdırlar ki, onlar da bu kimi halların qarşısını almaq üçün müxtəlif tədbirlər görsünlər. Çünki qida təhlükəsizliyi prinsipləri tarladan süfrəyədək bütün zəncirləri əhatə etməlidir. Əgər hər hansısa bir zəncirdə qırılma baş verirsə, bu, artıq insan sağlamlığı üçün təhlükəli ola bilər".



**Banuçiçək Hüseynli**

# Vətən müharibəsinin qazisi - **Hüseyn Mustafayev**

## QAZİNİN DÖYÜŞ YOLU







***Tariximizə Vətən müharibəsi kimi həkk olunan savaşda od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən vətənin mərd oğulları "ya qazi, ya da şəhid olub, bu torpağı işğaldan azad etməliyik", - deyib savaş meydanına atıldılar. Azərbaycan, sənin işıqlı gələcəyin, istiqlalın, azadlıq günəşinin doğması üçün torpağına qanlar axıdıldı. Canından, qanından keçən neçə-neçə igid oğul torpağın şirəsindən, qanla yoğrulmuş hər qarışından güc aldı. Vətən oğulları Azərbaycanın qoynunda Milli Qəhrəman oldular, qanları ilə torpağı suvararaq Şəhid oldular, Qazi oldular. Can fəda edib, əzəli torpaqlarımızda üç rəngli bayrağımızı dalğalandırdılar.***

44 günlük Vətən müharibəsi. Qısa zaman və tarixi qələbə. Vətən müharibəsi qazisi Hüseyn İslam oğlu Mustafayev də bu məsləklə müharibənin amansız qoynuna atıldı. 29 yaşlı gənc heç nəyi gözə almadan düşməndən intiqam almaq üçün müharibənin ən qaynar nöqtələrində düşmənlə üz-üzə vuruşdu. Bu torpağın şah budaqları olan belə oğullarımız vətənin çətin günündə silaha sarılıb gecəli-gündüzlü Odlar diyarının müdafiəsində durdular. Vətən daşı onların isti yuvsına çevrildi.

1991-ci ilin iyulun 30-da Tovuz rayonunun Xatinli kəndində anadan olan Hüseyn ilk təhsilini Tovuz rayon Xatınlı kənd Firuddin Qasımov adına tam orta məktəbində alıb. Bizim qəhrəman Hüseyn 2011-ci ildən Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) gizir kimi fəaliyyət göstərib. Hüseyn seçilmişlər arasında dünyanın bir çox ölkələrində, Türkiyənin İzmir şəhərində, Moskvada, Pakistanda və Bakıda təlimlərdə olub. Bu təlimlərdə yaxşı nəticə göstərdiyinə görə hər bir ölkədə medal və diplomlarla təltif edilib. 2016-ci ildə İzmirdə Efes yarışmasında ölkələr arasında keçirilən yarışda, eləcə də 2020-ci ildə Moskva şəhərində keçirilən Qələbənin 75 illiyinə həsr olunmuş Hərbi Paradda iştirak edib.

Hüseyn Mustafayev 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan gündən ön cəbhədə vuruşub. Döyüş meydanında ölümün gözünə dik baxaraq, son nəfəsinə qədər düşmənlə vuruşacağına söz verib. İlk öncə Murovdağ istiqamətində gedən döyüşlərdə kəllə-beyin travması alıb. Buna baxmayaraq, döyüş yolunun davam etdirib. Sonra Füzuli istiqamətində gedən döyüşlərdə ayağından yaralanıb, amma geri çəkilməyib, Mübariz ruhu onu sarsıda bilməyib. Daha sonra Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində düşmənin minamyotdan açdığı atəş nəticəsində ağır yaralanıb və geri təxris olunub. Hərbi xəstəxanada uzun müddət müalicə olunub. "Yaşat" Fondunun maddi dəstəyi ilə əməliyyat olunsada sağlamlığı tam bərpa olunmayıb. Yaxınlarının dediyinə görə, beynində yaddaş pozğunluğu var. Qazinin sağlamlığını tam bərpa etmək üçün xarici ölkələrdən birində müalicə kursu keçirməsinə ehtiyac var. Bunu üçün böyük məbləğdə pul tələb olunur. Qohumları müvafiq qurumlardan və xeyirxah insanlardan Vətən müharibəsi qazisi Hüseyn Mustafayevə kömək etmələrini xahiş edirlər. Onu da bildirilər ki, dövlət onların ailəsinə və H.Mustafayevə lazım olan bütün maddi və mənəvi dəstəyi göstərir. Onu da qeyd edək ki, qazinin Vətən uğurunda göstərdiyi şücaət və döyüş tapşırıqlarını qəhrəmanlıqla yerinə yetirdinə görə, dövlətimiz tərəfindən orden və medallarla təltif olunub.

Təbii ki, 44 günlük müharibəsində od-alov içində vuruşan Hüseyn kimi oğullarımız böyük qürur və dəyanət, şücaət və əzmkarlıq nümayiş etdirdilər. Əlbəttə ki, müharibə böyük itki, təlafatdır. Xalqımız savaşı - bu tarixi də yaşadı. Şəhidlərimiz də oldu, qazilərimiz də. Bu gün haqqında söz açdığımız qazilərimizdən olan Hüseyn Mustafayevin həyat və döyüş yolu bir hekayədir. Bir qəhrəman oğulun yaşadığı real döyüş səhnələrinin hekayəsi. Ermənilərin vəhşiliyini, vandallığını lap kiçik yaşlarından anlamış Hüseyn kiçik yaşlarından ermənilərin azərbaycanlılara verdiyi zülm nəticəsində doğma torpaqlarını tərk etmək məcburiyyətində qaldıqlarını görmüş və intiqam hissi onu tərk etməmişdir. Vətən belə oğulları ilə qürur duyur. Onların hər bir xalqımızın fəxarətlə adlarını çəkdiyi mərd oğullardır.

Baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan qazimiz Hüseyn İslam oğlu Mustafayev fədakarlıq və ərənliklə torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşub. Xalqımıza başucalığı gətirən bir tarixin yazılmasında onun da şücaəti var. Əlbəttə ki, hər bir insan sülh, əmin-amanlıq içində yaşamaq, səmasının aydın, torpağının rahat nəfəsini duymaq istər. Bu gün səmamızın aydın olmasında belə oğulların qəhrəmanlığı var və onların ismi şərəf və vüqar lövhəmizə əbədi həkk olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan neftinin qiymətində baş verən artımın səbəbi nədir



*İQTİSADÇI AÇIQLADI*

**"Dünya enerji bazarında müşahidə edilən qiymət artımı Azərbaycan neftinin qiymətinə də təsir edir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Vüqar Bayramov bildirib.**



Onun sözlərinə görə, hazırda neftin bir bariyerinin qiyməti brend marka üçün 105 dollar təklif olunur: "Xeyli müddətdir ki, neftin dünya bazarındakı qiyməti hər bariyer üçün 100 dollardan artıqdır. Azərbaycan nefti "Azərlayt" brend markalı neftə indeks hasil olunur. Təbii ki, bu baxımdan brend markalı neftin qiymətindəki artımlar Azərbaycan neftinin qiymətinin artmasına gətirib çıxarır. Bütün bunların hər biri bütövlükdə ölkəyə daxil olan valyuta həcminə təsir göstərən əsas faktorlardan biridir. Azərbaycanın bütövlükdə ümumi ixracatının təxminən 85 faizini neft və neft məhsulları təşkil edir. Ona görə də neftin dünya bazarındakı qiymətinin artması Azərbaycana daxil olan valyuta həcminin çoxlmasına ümumən isə dövlət gəlirlərimizin artmasına imkan yaradır".

***Banuçiçək Hüseynli***

# "Bununla bağlı nəinki etiraz, iki cümləlik bəyanat belə verilməyib"




"Azərbaycanda Qərbin nəzarətində olan "beşinci kolon"un fəallaşması hər kəsi ciddi şəkildə narahat etməlidir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov deyib. Onun sözlərinə görə, son aylarda Qərb ölkələrində ilk növbədə ABŞ-da Azərbaycan və Türkiyə əleyhinə nə qədər dəhşətli qərarlar qəbul olunub: "Azərbaycan Qarabağ ermənilərinə qarşı müharibəyə başlamaqda, əsirlərə qarşı qeyri-insani hərəkət etmək, onların başını kəsmək, onları qətlə yetirmək hallarına yol verməkdə günahlandırılıb. Azərbaycanın qadağan olunmuş sursatlardan istifadə etdiyi, müharibə cinayətləri törətdiyi iddia olunub. Azərbaycana qarşı həqiqətə qətiyyən uyğun olmayan addımlar atılıb. Bununla bağlı nəinki etiraz, iki cümləlik bəyanat belə verilməyib.

Azərbaycanda müəyyən qüvvələr sabitliyi pozmağa çalışırlar. Onlar elə təsəvvür yaratmağa çalışırlar ki, guya Azərbaycanda insanların hüquqları pozulur, ictimai fəallara qarşı zorakılıq halları baş verir, Azərbaycanda demokratiya yoxdur və s. Qərbdən maliyyələşən qruplar ifşa olunmalıdır. Onlar dövlət üçün təhlükəlidir. Belə məqamda ölkədə sabitliyi pozmağa çalışanları, ölkənin imicinə zərbə vurmağa çalışanlar ifşa edilməlidir. Çünki sülh danışıqlarının sürətləndiyi bir dövrdə bu cür hərəkətə yol vermək Azərbaycana xəyanətdir".

***Arzu Qurbanzadə***

# "Üçtərəfli bəyanatdan sonra 219 nəfər mina qurbanı olub"




"Üçtərəfli bəyanat imzalandıqdan bu günədək əksəriyyəti mülki şəxs olmaqla, 219 nəfər mina qurbanı olub". SİA xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Leyla Abdullayeva bildirib.

"Əfsuslar olsun ki, vətəndaşlarımız mütəmadi olaraq, o cümlədən Ermənistan tərəfinin xəritələri təqdim etməsindən, habelə iki dövlət liderinin Brüssel görüşündən sonra da mina qurbanına çevrilirlər. Bu ilin yalnız aprel ayında baş vermiş 9 hadisə nəticəsində 10 nəfər minalardan xəsarər alıb"- idarə rəisi vurğulayıb.

*Şuşa - tarixi, qədim şəhərimiz. Hər daşından süzülüb gələn tarix onun zəngin və qüdrətli bir şəhər olduğuna ehtiva edir. Şəhərin tarixi dövrünə nəzər saldıqda burada salınan memarlıq abidələrinin, böyük simaların şəhərin tarixində izi olduğunu görürük. Əlbəttə ki, Şərqin Konservatoriyası olan Şuşa böyük musiqiçilər nəsli də yetişdirmişdir. Azərbaycanın mədəniyyət paytaxtının zamanın dönəmində yetişdirdiyi musiqiçilər böyük məktəb yaratmış və onun bulağından içilən su neçə-neçə insanın səsinə xoş avaz, rəng və çalar barmaqlarına şirinlik vermişdir. Burada səslənən musiqilərin sədası - səs, avaz və zəngulələr qədim şəhərin divarlarına hopmuş, daş yaddaşlarda əbədiləşmişdir.*



# Şuşa

## Şərqin Konservatoriyasıdır

### Məşhur tarzən Sadıqcanın evində bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək

Bildiyimiz kimi, XIX əsrin əvvəllərində Şuşa mədəniyyət mərkəzlərindən biri kimi tanınırdı. Şəhərdə Qafqazdan gələn şairlər, dramaturqlar, məşhur musiqiçilər və rəssamlar yaradıcılıq məclislərində iştirak edirdilər, teatr nümayişləri və musiqi görüşləri keçirilirdi. Mir Möhsün Nəvvabın "Məclisi-fəramuşan" və "Məclisi-xanəndə", Xurşidbanu Natəvanın təşkil etdiyi məclislərdə müğənnilər və musiqiçilər öz sənətlərini nümayiş etdirir, musiqi nəzəriyyə problemləri ilə əlaqədar müzakirələr aparır, şairlərin əsərləri səslənir və müsabiqələr təşkil olunurdu. Belə bir məktəb olan Şuşa zaman-zaman inkişaf dövrünü yaşamışdır. Azərbaycanın tanınmış tarzənlərindən sayılan məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıq Mirzə Əsəd oğlu da bu şəhərdə Şuşa şəhərində anadan olub, boya-başa çatmışdır. Zəngin Şuşa mühiti onu böyük və təkrarsız sənətkar kimi yetişdirmişdir. Şuşa kimi bir mühitdə böyüyən Sadığın hələ uşaq yaşlarından incəsənətə, musiqiyə sonsuz həvəs göstərib. Atası oğlundakı gözəl səsi duyaraq, onu Xarrat Qulunun məktəbinə aparıb. Onun tərcümeyi-halından oxuyuruq ki, Şuşanın bu məşhur xanəndəsi yeniyetmənin səsini yoxlayaraq, məlahətli avazından xoşu gəlib və məktəbinə qəbul edib. Xalq mahnılarını özünəməxsus şəkildə oxuyan Sadığın 18 yaşında səsi qəflətən batır. Amma musiqiyə, sənətə bağlılığı onu ruhdan salmır. Bu, bəlkə də taleyin bir hökmü imiş. O, bir müddət tütək, ney, sonra da kamança çalır. Bu alətləri gözəl dinləndirsə də, özünü ancaq tarda tapır. İri əlləri, uzun və güclü barmaqları olan Sadıq qısa müddət ərzində istedad və qabiliyyətinin sayəsində və şirmayi barmaqları ilə bu sənətin sirlərinə yiyələnərək hətta müəllimindən da yaxşı tar çalır.

ŞƏRQ ALƏMİNDƏ YENİLİK

Etiraf edək ki, Sadıqcanın tarzən kimi tanınmasında, Şuşada keçirilən musiqi məclisləri böyük rol oynamışdır. Sadıqcan şənliklərdə və musiqi məclislərində iştirak etməkdən başqa, Şuşa və Tiflisdə tamaşaların fasilələri zamanı konsert vermişdi. Sadıqcan həm kamançada, həm də tarda o dövrün məşhur xanəndələrini müşayiət edərmiş. Onun sorağı Qarabağdan kənara çıxmışdı. Cənubi Qafqazda, Şərq dünyasında Sadıqcanı yaxşı tanıyırdılar. Bu o demək idi ki, Şuşa məşhur bir şəhər idi. Bu şəhərin yetirmələri olan məşhur musiqiçilər nəsli onun hüdudlarından kənarda sevilirdilər. Öz dövründə "Qafqazın birinci tarzəni" kimi tanınan Sadıqcan tarın simlərində dəyişiklik etmiş, tarı təkmilləşdirərək ona cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Sadıqcan ilk dəfə tarı sinədə ifa etməyə başlayıb. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib. Mirzə Sadığın tardakı bu dəyişikliyi Şərq aləmində yenilik idi.

### AZƏRBAYCAN MUSİQİ TARİXİNDƏ YENİ BİR SƏHİFƏ AÇMIŞ TARZƏN

Sadıqcanın rekonstruksiya etdiyi tarında isə artırılmış simlərin vasitəsilə muğam sənəti daha da rövnəqlənmiş, harmonik həmahənglik nizamlandırılmışdır. Beləliklə, Sadıqcan tarın simlərinin sayını artırması ilə tarın solo aləti kimi geniş istifadə edilməsini, xüsusilə muğamın solo instrumental imkanını əldə etmişdir. Sadıqcan bir neçə muğamın yaradıcısı kimi də tanınır. Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Etim Segah", "Çoban Bayatı" yaranması Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlıdır. Azərbaycan bəstəkarı Əfrasiyab Bədəlbəyli yazırdı: "Əgər nəzərə alsaq ki, muğamların ifasında tar çalğı alətləri içərisində əsasdır, onda Mirzə Sadığın tarının son nəticədə Azərbaycan musiqi sənətinin inkişafında dönüş yaratdığını inamla demək olar. Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onların ifadə vasitələri, təsir gücü və ifa üsulları yeni bir mərhələyə qalxmışdır. Mirzə Sadıq Azərbaycan musiqi tarixində yeni bir səhifə açmışdır".

Məhz Sadıqcandan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onun ifadə vasitələri, təsir qüvvəsi, ifa üsulu yeni bir pilləyə qalxdı. Sadıqcanın Azərbaycan musiqisi tarixində açdığı yeni səhifə, əslində bir məktəb idi.

### MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRLƏ KÖKLƏNMİŞ İFAÇI

Qarabağ münaqişəsi başlanmasından əvvəl, Şuşada Sadıqcanın evinin divarında Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən qoyulmuş xatirə lövhəsi var idi. Bakının Xətai rayonunda küçə onun adını daşıyır. İlyas Əfendiyevin "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povesti tarzənə həsr olunub. 1997-ci ildə tar üzrə Azərbaycan Respublika müsabiqələri onun adını daşıyıb. Dövlətimiz tərəfindən hər zaman yaradıcılığına böyük diqqət ayrılmışdır. 2006-cı ildə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Sadıqcanın 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. 2007-ci ildə Azərbaycan Nazirlər Kabineti yanında Baş Arxivlər İdarəsi kollektivinin təşəbbüsü ilə Sadıqcan haqqında kitab nəşr olunub. 2008-ci ildə Bakının Beynəlxalq Muğam Mərkəzində Sadıqcanın 170 illik yubileyinə həsr olunmuş konsert keçirilmişdir.

Şuşa həqiqətən də, böyük sənət və sənətkarlar mərkəzidir. Böyük sənətkarları ev muzeyləri yaşadıqları evlə bu gün xalqımızı ziyarətgah yerlərinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada olarkən Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış olublar. Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir. Sadıqcanın evində də bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirəcək. Dördbucaqlı plan quruluşu olan ev ikimərtəbəlidir. Bina Şuşaya xas memarlıq üslubunda inşa olunub.

Vurğulayaq ki, musiqiçinin doğulduğu ev vaxtilə bir mərtəbəli və iki otaqdan ibarət idi. Daha sonra, Mirzə Sadıq şöhrət qazanarkən, Şuşanın ən yaxşı küçələrindən birində üç mərtəbəli bir ev tikdirir və özü də bir neçə gün tikinti işində iştirak edir.

Azərbaycan mədəniyyətində, musiqi yaradıcılığında xüsusi yer tutan Sadıqcan milli-mənəvi dəyərlərlə köklənmiş, özünəməxsus xüsusiyyətləri, ənənələri, ifa gözəlliyi ilə fərqlənən Azərbaycan ifaçılıq sənətinin inkişafında öz sözünü deyən sənətkar olub. Tar ifaçılıq sənətinə yenilik gətirən sənətkarın yaratdığı məktəbdən yüzlərlə musiqiçilər nəsli bəhrələnmiş və onun sənət yolunun davamçıları böyük ustalıqla milli musiqimizə yeni rənglər və çalarlar gətirmişlər.

**Nəzakət ƏLƏDDİNQIZI**



BAXIŞ BUCAĞI

# Dilənməyə uzanan əllərimizi zeytun ağaclarına açaq

**Bu günlərdə zeytunla bağlı maraqlı bir söhbətin iştirakçısı oldum. Onun özünün, hətta yarpaqlarının belə faydalarından danışmaqla yanaşı, Bakıda və rayonlarımızdakı zeytun bağlarından, yol kənarlarında, hətta həyətlərimizdəki zeytun ağaclarından, ağacların altında palçığa qarışmaqla ömrünü torpağa tapşıran, məhv olan tonlarla meyvədən də söhbət açıldı. Zeytun ağaclarının çiçək açması ərəfəsində həmin söhbətlə sanki bir yolçuluğa çıxdım. Qarşılaşdığım insanlar, gördüyüm mənzərələr, rastlaşdığım hadisələr bu söhbətin fonunda bir-bir gözlərim önündə canlandı. Və bütün bunların nəticəsi olaraq belə bir yazı yazmaq qərarına gəldim.**

## İşləmək istəyirikmi?..

Aramızda işsizlikdən, ehtiyacdan gileylənən çox sayda insanlar var. Hətta hər gün əl açıb dilənən adamlarla da qarşılaşırıq. Ancaq beləəri nədənsə nə üçün işsizdir, bir məşğuliyyəti yoxdur, niyə dilənir suallarının cavabında özünü yox, cəmiyyəti günahlandırırlar. Hansı ki, bu cür problemlərdə günahkar yalnız özləridir. Ona görə özləridir ki, bəzi insanlar həyatını qurmağı bacarmır, nəyi necə etmək lazım olduğunu bilmir. Buna görə də çətinliklər qarşısında qalır, problemlər məngənəsində sıxılırlar. Səbəb isə yalnız özü, tənbəlliyi, az gəlirlə, zəhmət tələb edən işlərlə razılaşmamasıdır. Belə olanda isə günlərlə, aylarla evdə oturur, yaxın qohum-əqrəbanın yardımı, həyat yoldaşının və ya övladının qazandığı az maaşla bir təhər keçinirlər. Bu, tək ailə başçılarına deyil, işləmək qabiliyyəti olan, lakin asan bir iş axtaran, bu üzdən də əziyyət çəkən hər bir ailə üzvünə aiddir.

Problem nədir? Odur ki, insanlar var ki, bir işə düzələnə kimi gündəlik qazanc əldə etmək üçün səy göstərmir, ancaq gözləmə mövqeyində qalırlar. Hansı ki, bir qədər cəhd göstərməklə ailənin dolanışığını təmin etmək, ehtiyaclarını müəyyən qədər ödəmək olar.

Ulu Yaradan bizə saysız gözəl və zəngin nemətlər bəxş edib. Lakin biz onları çox vaxt dəyərləndirə, istifadə edə bilmirik. Götürək elə zeytunu. Faydası haqqında günlərlə danışa biləcəyimiz zeytunu. Bağlarda, küçələrdə, hətta evimizin həyətində zeytun ağacları var ki, meyvəsi üzərində qışı da görür, baharı da. Tökülüb ağacların altında qalır. Palçığa qarışıb məhv olur. Biz nə edirik? O ağacların yanından heç bu neməti görməyibmiş kimi keçir, əhəmiyyət belə vermədən evə yollanır, oturur, oturur, nə vaxtsa bir iş tapacağımızı gözləyirik. Yaxud da ki, həmin ağacların yanından ötərək insanların sıx olduğu yerlərə dilənmək üçün yollanırıq.

Allahın verdiyi neməti ayaqlayıb keçir, evdə səhəri axşam edir, yaxud da günəşin, yağışın, küləyin qabağında saatlarla əl açıb kimlərdənsə kömək dilənirik. Hansı ki, həmin yanından ötdüyümüz zeytunlar çıxış yolu ola bilər. Tökülüb ağacların altında qalan zeytunun marketlərdə, bazarlarda qiymətindən yəqin ki, hər kəs məlumatlıdır. Duza qoyulmuş bir ovuc zeytunu neçəyə alırıq? Heç bu barədə düşünən varmı? Belə isə nə üçün bu nemətin yanından laqeydcəsinə keçib dilənməyə üz tuturuq? Nə üçün küçələrdə tökülüb gedən bu neməti görmürük? Bəzən bir çörək almağa qəpik tapa bilmirik. Zeytun ağaclarının altına tökülən meyvələr qəpik deyilmi? Yığ yığa bildikcə... Qəpik üçün insanlara uzanan əlləri zeytun ağaclarına aç, əziyyət çək, yığ, duza qoy, bazara çıxar. Həm vaxtını, həm ailə büdcəni dəyərləndir.

Bəs biz nə edirik? Asan qazanc yolları axtarırıq, vaxtımızı az gəlir gələn işlərə sərf etmək istəmir, "əşi, ondan nə gələcək",- deyirik. Oturub gözləyirik ki, nə vaxtsa işə düzələrik, oradan gələn maaşla bir təhər dolanarıq. Və yaxud da ki, lap asan vasitə- küçədə dilənməyi üstün tuturuq. Bu yolla gündəlik çörək pulu qazanmağı heç də qüsur hesab etmirik. Nə qədər gözləmək, nə qədər dilənmək olar? Nə qədər başqaları hesabına yaşamaq olar? Axı insan həyatını müəyyən bir iş üzərində qurmalıdır. Çalışmalı, cəhd etməli, zəhmət çəkməlidir. Bunu etmək istəyənlər də, sadəcə dilənməyi üstün tutanlar da kənardan o qədər aydın şəkildə görünür ki...



## Eyni küçədə üç qadın...

Hər gün işə gəlib-gedərkən keçdiyim küçədə təxminən eyni yaşda qadınlarla qarşılaşıram. Biri hər gün balaca masanın üzərinə dərman bitkiləri, dəfnə yarpağı, üzərlik, süd, yumurta qoyub satır. Bir qədər aralıda başqa bir qadın əlində corab, qarşısında üzərlik dəstələri... Yoldan keçənlərdən dayanmadan-durmadan xahiş edir ki, alsınlar, ondan bir qədər aralıda isə digər qadın əlini açıb dilənir. İnsanlardan ona yardım etməsini, azyaşlı uşaqları olduğunu, ehtiyac içərisində yaşadığını bildirir, kömək umur. Hələ bəzən qucağında uşaq da olur. Havanın isti-soyuğunda, səhərin sazağında hətta körpəsini də əməlinə alət edir. Baxırsan ki, bu qadın aralıdakı həmin qadınlardan dəfələrlə gümrahdır, heç bir fiziki qüsuru yoxdur, iş qabiliyyəti yerindədir.

Qısa bir məsafədə üç qadın, üç tale, üç həyat, üç iş sahəsi var. Bir-birindən fərqli... Qadınların biri sakitcə, heç bir çağırış etmədən satır, artıq müəyyən qədər alıcıları da var. Digər qadın da satır, lakin almaları üçün insanlardan xahiş edir. Çünki düşünür ki, satdığı cəmi iki çeşiddən ibarətdir, bu da hər kəsə lazım olmaya bilər. Ona görə ehtiyacını dilə gətirir, alıcı diqqəti cəlb etmək üçün. Üçüncü qadın isə əl açıb dilənir. Görünür yaxınlıqdakı qadınlar ona heç cür nümunə ola bilmirlər. Hər gün onları görə-görə, üz-üzə, göz-gözə gələ-gələ nə üçün onlara oxşamaq istəmir, niyə o da həmin qadınlar kimi çörəyini halallıqla, öz zəhməti ilə qazanmaq istəmir, anlamaq çətindir.

Düşünürəm ki, dilənməkdənsə, bax küçələrdə ağacların altında məhv olan zeytunları toplayıb duza qoyub, belə yol kənarlarında satmaqla xeyli gəlir əldə etmək olar. Bu halda digər qadınlar kimi ən azından zəhmətinlə nə isə qazanmış olarsan, dilənməklə yox. Belə isə dilənməyə uzanan əllərimizi niyə Allahın nemətlərinə uzatmayaq?

## İstədin verdilər, yaxud verdilər aldın...

Teodor Drayzerin "Kerri bacı" əsərindən belə bir deyim yadımda qalıb: hər ikisi dilənməkdir, istədin verdilər, yaxud verdilər aldın. Yəni əl açıb dilənərkən bunu dilinlə istəsən də, sakitcə bir kənarda dayanıb istəmək üçün əl açsan da, hər ikisi eyni mənanı izhar edir. Ya istədin aldın, ya verdilər aldın, sonda dilənirsən. Qürurundan keçirsən. Dilinlə istəməsən də, uzanan əlin qürurunu baltalayır. Səni yanından ötən yüzlərlə insanın qarşısında alçaldır. Nə üçün istəməlisən? Nə üçün başqalarından kömək ummalısan?

Dilənməyi bir kənara qoyaq. Yuxarıda haqqında danışdığımız evdə yatıb nə vaxtsa işə düzəlməsinə ümid edənlərdən deyək. O ümid edənlər ki, yaxın qohum-əqrəbalarının yardımı olmasa, ailəsi nə vəziyyətə düşər, deyə bilmirəm. Elə bunun özü də dilənməyə bənzər bir məsələdir. Çünki verirlər, alırsan.

Bəs müqəddəs İslam nə deyir. Dinimizə əsasən fiziki qüsuru olmayan, iş qabiliyyətli insanın dilənməsi qəti qadağandır. Bu, böyük günahdır. Rəsulullah(s) buyurub: Hər bir insan dilənçilik üçün üzünə bir qapı açsa, Allah-Təala onun üzünə 70 fəqirlik qapı açar. Belə isə evdə oturub kimdənsə kömək gözləmək, küçələrdə dilənmək əvəzinə bir az hərəkət etmək lazımdır. İstər zeytun, istər yuxarıda haqqında danışdığım qadınların satdıqları kimi nə isə satmaqla-zəhmətlə qazanmaq lazımdır. Bir gün heç nə sata bilməsən belə, sabaha ümidlə baxmalı, bunun üçün yenə də evdən eyni ümidlə çaxmalısan. Çünki Allah-Təala da zəhmətkeşi sevir, "səndən hərəkət, məndən bərəkət",- deyir.

Ulu Yaradanın bizə verdiyi bu qədər nemətlər ola-ola əllərimizi dilənməyə uzatmaq günahdır. Kimlərdənsə nə isə ummaq günahdır. Kimlərinsə yardımını gözləmək qəbahətdir. Çünki bu, dilənməkdir, istədin verdilər, ya verdilər aldın misalı kimi...

***Mətanət MƏMMƏDOVA***

# "Ermənistanın təxribatları iki səbəbdən qaynaqlanır"

**"Ermənistanın davamlı təxribatları əsasən iki səbəbdən qaynaqlanır. Bunlardan birincisi Paşinyan hakimiyyətinin çıxılmaz durumda olması və indiyə qədər üzərinə götürdüyü öhdəliklərdən yayınmaq cəhdi ilə, ikincisi isə Rusiya tərəfindən edilən davamlı təzyiqlərlə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.**

Onun sözlərinə görə, üçtərəfli bəyanatın imzalanmasından keçən dövr ərzində üzərinə götürdüyü öhdəliklərin icrasıyla bağlı heç bir konkret addım atmayan, daha sonrakı istər Rusiya, istərsə də Brüsseldə keçirilən görüşlərdə isə diplomatik müstəvidə də Azərbaycana uduzan Ermənistan yeganə çıxış yolunu müxtəlif bəhanələrlə vaxtı uzatmaqda görürdü. İstər Paşinyan, istərsə də Ermənistan XİN Ararat Mirzəyan tərəfindən səsləndirilən açıqlamalar, verilmiş bəyanalar onu deməyə əsas verir ki, Ermənistan sülhə hazır deyil və bu baxımdan da, münasibətlərin gərginləşməsi ilə sülh danışıqlarını pozmağı hədəfləyib. Elə bir neçə gün bundan əvvəl, Azərbaycan tərəfindən təqdim edilən 5 baza prinsip əsasında sülh sazişinin imzalanması ilə bağlı təkliflərə cavab olaraq 6 maddədən ibarət yeni təkliflərlə çıxış etmələri də bunun bariz sübutudur. Məlum olduğu kimi Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın bir neçə gün bundan əvvəl səsləndirdiyi fikirlərdən məlum olur ki, Ermənistan Azərbaycanın irəli sürdüyü prinsiplərlə razıdır, amma bu prinsiplərə Qarabağdakı ermənilərin təhlükəsizliyinin də əlavə edilməsini istəyir. Ermənistanın bu istəyi dolayısıyla status məsələsinin yenidən ortalığa atılması, başqa sözlə, indiyə qədər əldə olunmuş razılaşmalardan qaçmaq cəhdidir. Sual olunur; sən Azərbaycanın sərhədlərini qəbul edirsənsə, ərazi bütövlüyünü tanıyırsansa və bir daha ərazi iddiası ilə çıxış edilməyəcəyini də qəbul edirsənsə, onda hansı statusdan söhbət gedə bilər?



Müharibənin başa çatmasından sonra aparılan danışıqlarda bir dəfə də olsun status müzakirə olunmadığı halda, indi yenidən bu məsələnin gündəmə gətirilməsi onu deməyə əsas verir ki, Ermənistan əldə olunmuş razılaşmaların icrasından qaçır və ya ən azından prosesi uzatmaq üçün bəhanələr axtarır. Ermənistanın Brüssel razılaşmasında nəzərdə tutulduğu kimi, aprelin 30-dək sərhəd komissiyasının formalaşdırılmasına əməl etməməsi də dediklərimi təsdiq edir. Bunları nəzərə alsaq erməni təxribatları nəticəsində sərhəddə atəşkəsin pozulmasının da hardan qaynaqlandığını görə bilərik. Məqsəd odur ki, vəziyyət gərginləşsin və Paşinyan da belə vəziyyətdə danışıqlar aparmağın çətin olduğunu bəhanə edərək prosesi maksimum şəkildə uzatsın. Lakin təəssüf ki, sülh prosesində maraqlı olmayan təkcə Ermənistan deyil, həm də regionda hərbi mövcudluğunu qoruyub saxlamaq istəyən Rusiyadır. Normallaşma prosesini və Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını özü üçün təhlükə hesab edən Rusiya bütün vasitələrdən istifadə edərək prosesi tormozlamağa çalışır. Avropa İttifaqının vasitəçiliyi ilə aparılan danışıqlarda faktiki olaraq oyundankənar vəziyyətə düşmüş Rusiya üçün prosesi yenidən öz nəzarətinə qaytarmaq və bununla da hər iki tərəfə təzyiq imkanlarını əlində saxlamaq olduqca vacibdir. Bu isə ancaq Paşinyanın sülh danışıqlarından imtina etməsi ilə mümkündür. Odur ki, Rusiya həm separatçı rejimə dəstək verməklə onu Paşinyanın apardığı sülh danışıqlarını qəbul etməməyə şirnikləndirərək, həm də daxildəki müxalifəti ayağa qaldıraraq Paşinyana təzyiq göstərməyə çalışır. Deyilənləri son Lavrov-Mirzəyan görüşündə Rusiya XİN-nin açıqlamaları da təsdiqləyir. Xatırlayırsınızsa həmin görüşlə bağlı mətbuat konfransında Lavrov Rusiyanın Ermənistanın müdafiə qabiliyyətinin gücləndirəcəyi və sərhədlərin qorunmasında köməklik göstərməyə davam edəcəyi ilə bağlı bəyanat vermişdi. Bu isə faktiki olaraq onu deməyə əsas verir ki, erməni təxribatlarının davamı gələcək. Rusiyanın sülh prosesində maraqlı olmadığını sübut edən digər bir fakta da diqqət yönəltmək istəyirəm. Putinin Paşinyanla keçirilən son görüşündə Rusiya prezidenti tərəfindən yenidən "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsi, "Qarabağda hələ çoxlu problemlər var və ən əsası da təhlükəsizlik məsələləri ilə bağlı problemlərdir" deməsi də faktiki olaraq Paşinyana bu konteksdən çıxış edərək prosesi uzat mesajının verilməsi anlamını daşıyır. Və ən nəhayət əgər erməni separatçıları Rusiya sülhməramlılarının olduqları ərazilərdə, onların gözü qarşısında yeni səngərlər qazaraq möhkəmlənmə işləri aparırlarsa və separatçıların başçısı "biz Rusiya sülhməramlıları ilə yeni təhlükəsizlik mexanizmi üzərində işləyirik" deyirsə və Rusiya da bunu təkzib etmirsə demək ki, Rusiya sülh prosesində maraqlı deyil."

***Banuçiçək Hüseynli***

# OXUYAQ BİLƏK

**Qazla bağlı hadisələr, qəzalar bir çox hallarda dağıntı və ölümlə nəticələnir. Belə hallarda adətən qaz təchuzatçısı günahkar hesab edilir, lakin qazdan istifadə edən abonenetlərin də öz vəzifələri və məsuliyyətləri var. Faktlar göstərir ki, belə hadisələrin azı 90 faizi abonentlərin məsuliyyətsizliyi, məlumatsızlığı nəticəsində baş verir. Misal üçün qeyri-standart qaz cihazlarından istifadə, qazla işləyən sistemlərin təlimata uyğun olmayan formada çəkilməsi və quraşdırılması, qapalı otaqlarda qaz cihazlarından düzgün istifadə edilməməsi və havalandırma yaradılmaması nəticəsində baş verən dəm qazından zəhərlənmə halları və s.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb. Təhlükəsizlik qaydaları ilə aşağıdakı videodan da tanış ola bilərsiniz. https://www.youtube.com/watch?v=G_4mT2XvAWs&list=UU4fZ75t4ginO18Qh1ivcKwg&t=3s*

## Qazdan gələn təhlükə: nə etməli, nə etməməli



Nazirlər Kabinetinin 12.05.2011-ci il tarixli 80 №-li qərarı ilə təsdiq edilmiş "Təbii qazdan istifadə Qaydaları"nda Azərbaycan Respublikası Fövqəladə Hallar və Energetika Nazirliklərinin səlahiyyətli nümayəndələrinin, qaz paylayıcısının (Qaz istismarı müəssisələrinin), qazdan istifadə edən istehlakçıların, mənzil mülkiyyətçilərinin və yaşayış binalarını idarə edən təşkilatların vəzifələri əks olunub. Həmin qaydalara əsasən Fövqəladə Hallar və Energetika nazirliklərinin səlahiyyətli nümayəndələri istehlakçını 5 iş günü əvvəl məlumatlandırmaqla qazdan səmərəli istifadəni, məişət qaz qurğularının təhlükəsiz və etibarlı istismar edilməsini təmin etmək məqsədilə həmin qurğulara, tüstü bacalarına və qazpaylayıcı şəbəkəyə 6 ayda bir dəfədən az olmayaraq texniki baxış keçirilməsini təmin etməlidir. Fövqəladə Hallar və Energetika nazirliklərinin səlahiyyətli nümayəndələri tərəfindən keçirilmiş texniki baxışla bağlı 2 nüsxədən ibarət akt tərtib etməli və aktın bir nüsxəsəsini mütləq istehlakçıya təqdim etməlidir.

Eyni zamanda qaz paylayıcısı şəbəkədə qəza hallarının qarşısını almalı və nəticələrini aradan qaldırmağa borcludur. Təmir bərpa və digər texniki məsələlərlə əlaqədar qaz təchizatının dayandırılmasına zərurət yarandığı təqdirdə bu barədə istehlakçılara kütləvi informasiya və mənzil istismar sahələri vasitəsi ilə məlumat verilir. İstehlakçılar isə qaz qurğularını "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanuna müvafiq olaraq istismarına və işçi vəziyyətdə saxlanılmasına görə məsuliyyət daşıyırlar.

Yaşayış evlərində, ictimai binalarda, təhsil, səhiyyə, digər idarə və müəssisələrdə təbii qazdan istifadə zamanı Təhlükəsizlik Qaydalarına ciddi riayət edilməlidir.

### Bunları yadda saxlamalıyıq;

- Mənzilə daxil olarkən qaz sızmasının olmadığını təyin etməmiş açıq oddan və elektrik şəbəkəsindən istifadə etməməliyik,

- Qaz cihazlarından istifadə etməzdən əvvəl mütləq otağın havasını dəyişməli, yalnız qaz iyinin olmadığına əmin olduqdan sonra cihazı yandırmalıyıq,

- Qaz cihazlarından istifadə edərkən yanan odu odluğa yaxınlaşdırdıqdan sonra qaz kranını açmalıyıq,

- Qaz cihazlarını nəzarətsiz qoymamalıyıq. Kiçik yaşlı uşaqların, ruhi xəstələrin, qazdan istifadə etməyi bacarmayan şəxslərin qaz cihazlarından istifadə etməsinə imkan verməməliyik.

- Qaz cihazlarından istifadə edib qurtardıqdan sonra cihaz üzərindəki işlək kranı bağlamalıyıq.

- Qaz iyi hiss etdikdə, dərhal bütün kranları bağlamaq, elektrik cihazlarını şəbəkəyə qoşmayın, işlək cihazları şəbəkədən ayırmamamaq, işığı yandırıb-söndürməmək və mənzilin havasını dəyişdirmək və 104 nömrəli telefonla qaz-qəza xidmətinə müraciət eetmək lazımdır.

- Uzun müddətə evi və ya mənzili tərk etdikdə, həmçinin gecə vaxtlarında yatmazdan əvvəl qaz cihazları üzərindəki və nəzarətçi kranları bağlamalıyıq.

- Yanğın baş verdikdə dərhal mənzilə və ya evə gedən qaz xətti üzərindəki giriş kranını (ventili) bağlamalı, 101 №-li telefonla FHN-nin yanğından mühafizə xidmətinə, 104 №-li telefonla isə qaz-qəza xidmətinə xəbər verməliyik.

- Daxili qaz kəmərləri və qaz cihazlarına profilaktik xidmət göstərilməsinə maneçilik törədə bilən işlərə yol verməməliyik.

- Qaz sobalarının və su qızdırıcılarının tüstü kanalları (bacaları), mətbəx və vanna otaqlarının ventilyasiya kanalları (havadəyişmə yolları) qış mövsümünün başlanmasına qədər bina və fərdi yaşayış evlərinin sahibləri tərəfindən təmizlənməli, təmir edirilməli və onların vaxtaşırı yoxlanılması təmin olunmalıdır.

- İctimai binalarda, təhsil, səhiyyə, digər idarə və müəssisələrdə təbii qazdan istifadəyə cavabdeh şəxs-lər təyin edilməlidir. Məsul şəxslər müəssisə rəhbərinin əmri ilə təyin edilməli və "Qaz təsərrüfatında təhlükəsizlik Qaydaları" na uyğun olaraq imtahan verməlidirlər.

### Abonentlərə qadağandır;

- Özbaşına qaz qurğularının quraşdırılmasını, qaz qurğularının və qapayıcı ventillərin yerdəyişməsini, dəyişdirilməsini və təmirini həyata keçirmək, habelə bina daxilində qeyri-metal borular vasitəsilə qurğulara qaz xəttinin çəkilişini aparmaq,

- Qaz qurğusunun quraşdırıldığı yerin quruluşunu (planını) müvafiq razılaşma olmadan dəyişdirmək;

- Qaz qurğularının quruluşuna (konstruksiyasına) dəyişikliklər etmək, tüstü bacalarının və havadəyişmə xətlərinin quruluşunu dəyişdirmək, havadəyişmə xətlərini bağlamaq, tüstü bacalarının təmizlənməsi üçün nəzərdə tutulan "cibləri" hörmək və ya bağlamaq;

- Qaz qurğularında avtomatlaşdırılmış təhlükəsizlik və tənzimləmə vasitələrini ləğv etmək, nasaz qaz avadanlıqlarından, xüsusilə onlarda qaz sızması aşkar edildikdə qazdan istifadə etmək;

- Tüstü bacalarına və suqızdırıcıların tüstü ötürücü xətlərində özbaşına əlavə şiberlər (qapaqlar) quraşdırmaq;

- İldə bir dəfədən az olmayaraq tüstü və havadəyişmə xətlərinin növbəti yoxlamalarını və təmizləmələrini aparmadan qazdan istifadə etmək;

- Nəfəsliklər, jalüzlü barmaqlıqlar, havadəyişmə xətlərinin barmaqlıqları bağlı saxlandıqda, tüstü bacalarında və havadəyişmə xətlərində havanın sovrulması baş verməkdə, vanna otaqlarının qapıları altında dəliklər olmadıqda, həmin otaqlarda qaz qurğularından istifadə etmək;

- İşləyən qaz qurğularını nəzarətsiz qoymaq (daimi fəaliyyət üçün nəzərdə tutulmuş və müvafiq avtomatlaşdırma ilə təchiz edilmiş cihazlardan başqa);

- Qazdan və qaz qurğularından təyinatına uyğun olmayan məqsədlər üçün və qaz plitələrindən yaşayış sahəsinin qızdırılması üçün istifadə etmək;

- Qaz sızmasının aşkarlanmasında açıq oddan istifadə etmək;

- Qanunvericiliyə uyğun sertifikatlaşdırılmamış qaz qurğularından istifadə etmək;

- Qaz cihazları üzərində paltar və ya digər alışa bilən əşyaların qurutmaq;

- Qaz cihazları olan otaqlarda tez alışan mal və materialların yerləşdirmək və saxlamaq,

-Qaz xətlərinin özbaşına çəkilməsi, qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri və əlavə qaz cihazlarının quraşdırılması.

- Qaz cihazları olan otaqlarda tez alışan mal və materialların yerləşdirilməsi və saxlanması.

### Dəm qazı zəhərlənməsindən necə qorunmalı?

Məişət qaz cihazları quraşdırılan otaqlarda tələb edilən texniki normalar var ki, onlara riayət etməklə təhlüksizliyimizi təmin edə bilərik. Məsələn, təbii qazla işləyən tutumlu və axımlı su qızdırıcıları quraşdırılan vanna otaqları aşağıdakı tələblərə cavab verməlidir:

- təbii qazla işləyən axımlı su qızdırıcıları quraşdırılan vanna otaqlarının həcmi 7,5 m3- dən, tutumlu su qızdırıcıları quraşdırılan vanna otaqlarının həcmi isə 6,0 m3 - dən az olmamalıdır;

- vanna otağında ventilyasiya kanalı və tüstü bacası olmalıdır;

- vanna otağının qapısı çölə açılmalı, təmiz havanın daxil olması üçün qapı ilə döşəmə arasında sahəsi 0,02 m2 - dən az olmayan sahə olmalıdır və ya qapının aşağı hissəsində ümumi sahəsi həmin sahəyə ekvivalent olan dəliklər açılmalıdır;

- vanna otağının daxili qaz xətləri və onlar üzərindəki işçi və nəzarətçi kranlar layihədə nəzərdə tutulmuş yerlərdə quraşdırılmalıdır;

- vanna otağında bütün qaz xətləri və onların yivli birləşmələri üçün istifadə edilən hissələr (fitinqlər) poladdan olmalıdır;

- təbii qazla işləyən axımlı su qızdırıcıları yanmayan divarda quraşdırılmalıdır və divardan ən azı 2 sm aralı olmalıdır.

- yaşayış binalarında qaz plitələri quraşdırılan mətbəxlərin hündürlüyü 2,2 metrdən az olmamalıdır. Nəfəsliyi və ventilyasiya kanalı olmalıdır;

- mətbəxin həcmi dördgözlü plitələr üçün 15 m3-dən, üçgözlü plitələr üçün 12 m3-dan, ikigözlü plitələr üçün 8 m3-dən az olmamalıdır;

- mətbəxdə quraşdırılan qaz plitəsi ilə qarşı divar arasında ən azı 1m məsafə olmalıdır.

Hər bir halda özümüzün doğmalarımızın qonşularımızın təhlükəsizliyi, həyatı bu qaydalara düzgün riayət etməkdən əsaslı dərəcədə asılıdır. Bu işdə məsuliyyətli olmalı və faiciərin baş verməsinə imkan verməməliyik.

***Elçin Bayramlı***

**Ermənistanda davam edən siyasi qarşıdurmalar və bu fonda inkişaf xətti tutan hadisələrlə yanaşı, digər situasiyalar da diqqətlərdən yayınmır. Ancaq görünən daha bir mənzərə budur ki, əsasən sabiqlərdən ibarət olan revanşist müxalifətin Paşinyan hökumətini devirmək iddiaları öz mövcudluğunu qoruyub-saxlasa da onların yenidən iqtidara yiyələnmək cəhdləri alınmır, yaxud dalana dirənir. Fakt budur ki, revanşistlərə Rusiyadan müəyyən dəstəklər göstərilməsinə baxmayaraq, Paşinyan hakimiyyətini saxlayan Qərb hələlik üstün mövqedə dayanmaqda davam edir və görünən də budur ki, mövcud iqtidar daxili siyasi çəkişmələrdə qətiyyən geriyə çəkilmək məqsədində deyil. Əksinə, Paşinyan iqtidarı həmin vəziyyətdən sui-istifadə etməklə Bakı ilə razılaşdırılmış bir sıra məsələlərin icrasını uzatmağa cəhdlər göstərir və bu cəhdlər açıq-aydın görünməkdədir.**

# İrəvanın çırpıntıları və uğursuz ayaqda qalmaq cəhdləri



### Revanşistlər Nikol Paşinyanın əlinə oynayırlar?

Belə desək, Nikol Paşinyanın devrilməsi üçün küçələrə çıxan revanşistlər digər yandan Nikol Paşinyanın əlinə oynayırlar. Daha dəqiq desək, İrəvan ölkədə baş verən prosesləri bəhanə etməklə ilk əvvəl guya həmin prosesləri həll etməli olduğunu bəyan edir, sonra da Azərbaycanla yerdə qalan məsələləri müzakirə edəcəyini bildirir. Təbii ki, belə bir yanaşma ilə Bakı qətiyyən razı deyil və ikinci Brüssel görüşündə verilən vaxt da baş çatıb. Ermənistan hakimiyyətinin boş-boş vədlər, bəyanatlar səsləndirməsi isə proseslərin yerindən tərpənməsinə qətiyyən imkan vermir.

Biz hələ 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında, eləcə də sonrakı görüşlərdə əldə edilmiş üçtərəfli və s. razılaşmaları xatırlatmırıq və qəbul edilmiş bəndlər, müddəalar yerinə yetirilmədikcə əslində, vəziyyət pərdə arxasında gərginləşir. Belə bir pərdəaxrası vəziyyətin yaranması isə Bakıya deyil, məhz İrəvana öz mənfi təsirlərini göstərəcək. Təbii ki, verdiyi vədlərini yerinə yetirməzsə...

### İrəvan indi də ümidini Afinaya və yunan Kiprinə bağlayır

O da məlumdur ki, ikinci Qarabağ müharibəsində ağır məğlubiyyətə uğradılmış və həmin məğlubiyyətin acısını çəkən Ermənistan hakimiyyəti başqa tərəfdən xarici havadarlarından pay ummağa, dəstəklər almağa çalışır, xüsusilə, hərbi sahədə. Misal üçün, Ermənistan bu günlərdə Yunanıstan və yunan Kipri ilə hərbi əməkdaşlıq planını imzalayıb. Plana əsasən, həmin əməkdaşlığa müxtəlif təlimlər, təcrübə mübadilələri və s. aiddir. Maraqlıdır, əgər Yunanıstan və ya yunan Kipri hər hansı hərbi təcrübələrə malikdirlərsə, Ermənistan hansı təcrüməyə malik ola bilər? Məğlubiyyət və hərbi meydandan sürətlə qaçmaq təcrübələrinəmi? Erməni ordusu yunan tərəfləri ilə bu təcrübələrinimi mübadilə edəcək?

Ancaq mövzudan yayınmayaraq qeyd edək, yaxud xatırladaq ki, İrəvan daha əvvəllər də əsasən Yunanıstanla hərbi əməkdaşlıqlar edib və eyni zamanda, Afinanın Ankaraya qarşı qəbuledilməz davranışlarını dəstəkləyib...

### İrəvanın yenidən hərbi cəhətdən baş qaldırmaq cəhdləri isə yalnız onun öz ziyanına işləyəcək

Biz elə də uzağa getməyərək 2020-ci ilin yayını, daha dəqiq desək, ikinci Qarabağ müharibəsinin başlanmasına az qalmış əvvəlki müddəti xatırlada bilərik. Həmin vaxtlarda Türkiyə ilə Şərqi Aralıq dənizi mövzusunda (problemində) konfrontasiyaya getməyə çalışan, Türkiyənin suları daxilində hərbi manevrlər həyata keçirmək istəyən yunanlara açıq dəstəyi məhz Ermənistan vermişdi. Hətta hərbi dəstək də göstərə biləcəyini bəyan etmişdi. Həmin vaxtlarda erməni tərəfinin burnu necə deyərlər, göylə gedirdi və öz lax ordusunu da regionun ən "güclü ordusu" kimi dünya ictimaiyyətinə sırımağa çalışırdı.

Amma cəmi bir neçə ay sonra, 2020-ci ilin payızında göylə gedən həmin burnu elə əzildi ki, bu gün də, bundan sonrakı illər ərzində də onu bərpa edə bilməyəcək. Bütün bunların fonunda İrəvanın yenidən hərbi cəhətdən baş qaldırmaq cəhdləri isə yalnız onun öz ziyanına işləyəcək.

Yeri gəlmişkən, Ermənistanın burnu əzilərkən, Yunanıstan bu ölkəyə açıq dəstəyini ifadə edirdi və əlbəttə ki, Azərbaycan bunu da unutmur və unutmayacaq da!

### Ermənistan hələ də öz yerini müəyyən edə bilmirsə, bu faktor onun zərərinə işləyir

Beləliklə, 30 il boyunca Rusiyanın Cənubi Qafqazdakı sınıq-salxaq köşkü rolunu oynayan Ermənistan həm daxili, həm də xarici böhranlardan çıxa bilmir və bu gün nəinki Yunanıstan, heç Rusiyada da məlum səbəblərdən dolayı öz "yardım əlini" uzada bilmir.

Digər tərəfdən, Ermənistan hələ də elə sanır ki, özünün subyektivliyini önə çəkə biləcək, hətta artıracaq. Amma fakt həm də ondan ibarətdir ki, Ermənistan heç də subyekt kimi önə çıxmır, sadəcə öz ağasını, yəni Rusiyanı antitürk triosu ilə əvəzləməyə çalışır - Fransaya, Yunanıstana, yunan Kiprinə...





## *Bir tərəfdən revanşistlər, digər tərəfdən də yanlış siyasət*





Amma tarix də başqa tərəfi göstərir. Məsələn, dəfələrlə məlum olub ki, antitürk koalisiyaları zaman-zaman Türkiyə ilə razılaşmağa məcbur olur, nəticədə isə ağır zərbə yenə də ermənilərə dəyir. Və Ermənistan hələ də öz yerini müəyyən edə bilmirsə, bu faktor onun zərərinə işləyir.

***Rövşən RƏSULOV***

# BAŞ NAZİRİN SABİQ MÜŞAVİRİ:
## “Prezident Əliyevin diplomatiyasını alqışlayıram”



**Gürcüstanın İordaniya və Meksikadakı keçmiş səfiri, Gürcüstan baş nazirinin beynəlxalq məsələlər üzrə keçmiş müşaviri Zurab Eristavi ”Caliber” analitik mərkəzinə müsahibəsində regionda və dünyada baş verən siyasi proseslərlə bağlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Batono Zurab, peşəkar diplomat olduğunuzu nəzərə alaraq, icazə verin müsahibəyə bu sualla başlayım: rəsmi Tbilisinin hazırkı xarici siyasət kursunu necə qiymətləndirirsiniz?***

- Dövlətin xarici siyasət fəaliyyəti həmişə daxili siyasət üzərində qurulur. Bu baxımdan, təəssüf ki, Gürcüstan hazırda bu günün çağırışları qarşısında, xüsusən də Rusiyanın Ukraynaya hərbi təcavüzü fonunda olması lazım olan formada deyil. Forma dedikdə mən ölkənin həm iqtisadi, həm də daxili siyasi vəziyyətini nəzərdə tuturam.

Daxili siyasi vəziyyətə gəlincə, 2020-ci il parlament seçkilərindən sonra ölkədə siyasi böhran müşahidə olunur- həmin seçkilərin nəticələri müxalifət tərəfindən mübahisələndirilirdi, beynəlxalq müşahidəçilərin fikrincə, onlar birmənalı deyildi. Vəziyyət o həddə çatdı ki, Aİ ən yüksək səviyyədə müdaxilə etməyə və tərəflər arasında vasitəçilik üçün öz xidmətlərini təklif etməyə məcbur oldu və bu, müəyyən bir nöqtədə uğurla başa çatdı- tərəflər stabilləşdirməyə yönəlmiş fəaliyyət planını əks etdirən müvafiq sənəd imzaladılar. Bu, siyasi vəziyyəti normallaşdırdı, lakin buna baxmayaraq, hakim partiya bu razılaşmadan çıxdı.

Bütün bunlar müxalifətin parlament seçkilərinin nəticələrini boykot etməsindən, müxalifətdən olan deputatların parlamentdəki yerlərini almaq istəməməsindən əvvəl olub. Tədricən bu gərginlik səngidi, müxalifət bu qərarı Aİ-nin mövqeyini nəzərə almaları ilə əsaslandıraraq güzəştə getdi.

Həbs edilən və hələ də həbsdə olan Mixail Saakaşvilinin ölkəyə gəlişi ərəfəsində növbəti yerli seçkilərdən sonra vəziyyət gərginləşib, onun səhhəti pisləşir, ona görə də bu istiqamətdə gərginlikdən əsər-əlamət yoxdur.

İqtisadi baxımdan da hər şey normaldan uzaqdır, çünki ”Gürcü arzusu” hakimiyyətə gələndən sonra ölkədə iqtisadi durğunluq başlandı, makroiqtisadi göstəricilər pisləşdi; Həm mütləq, həm də nisbi (adambaşına) ifadədə ÜDM eyni səviyyədə qaldı; Gürcüstan iqtisadiyyatı 10 ildir ki, inkişaf etmir ki, bu da Gürcüstan kimi bir ölkə üçün qəbuledilməzdir.

***- Bunun fonunda uzun illər strateji müttəfiq olan Tbilisi ilə Kiyev arasında soyuqluq var. Baş verənlərin səbəbini nədə və ya kimdə görürsünüz?***

- Bəli, doğrudan da, Ukrayna ilə Gürcüstan arasında münasibətlər bir neçə ildir ki, pisləşir və kulminasiya nöqtəsi Ukrayna səfirinin Tbilisidən geri çağırılması oldu. Bundan əvvəl Tbilisi Gürcüstan səfirini məsləhətləşmələr üçün geri çağırıb və bu, Mixail Saakaşvilinin Ukrayna hökumətində məsul vəzifəyə təyin olunması ilə bağlı olub. Bu mənfi tendensiya bu gün də davam edir.

Xüsusilə Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin Tbilisinin Rusiya əleyhinə sanksiyalara qoşulmaması ilə bağlı bəzi bəyanatlarından sonra vəziyyət daha da pisləşib. Bu qalmaqallı bəyanatlar Gürcüstan cəmiyyətində təkcə müxalifət deyil, ekspert birliyi tərəfindən də tənqid olunur.

Bundan əlavə, Ukrayna hərbi kəşfiyyatı bir neçə dəfə Rusiyanın beynəlxalq sanksiyaları yumşaltmaq üçün Gürcüstandan istifadə edəcəyindən narahat olduqları barədə məlumatlar dərc edib. Bütün bunlar təbii ki, münasibətlərimizdə mənfi iz buraxır.

Müstəqilliyimizin ilk günündən Rusiya Federasiyasının bizə qarşı elan olunmamış müharibəyə başladığı və 2008-ci il müharibəsi ilə yekunlaşan müstəqillik və ərazi bütövlüyü uğrunda müharibəmiz zamanı Ukraynanın bizə göstərdiyi dəstəyi nəzərə alaraq, Kiyevin narahatlığını tamamilə başa düşürəm.

***- Gürcüstan ictimaiyyəti NATO-ya daxil olmaq barədə nə düşünür?***

- Bu, xüsusilə Ukraynada baş verən son hadisələr fonunda kifayət qədər çətin sualdır. Burada bir faktı nəzərə almalıyıq ki, Gürcüstan əhalisinin əksəriyyəti (80%-dən çoxu) Avroatlantik istiqaməti, xüsusən də ölkənin həm Aİ-yə, həm də NATO-ya daxil olmasını dəstəkləyir.

Ona görə də Gürcüstan hökumətinin bu vektordan kənara çıxacağını düşünmürəm. Deklarativ səviyyədə Gürcüstanın indiki hökuməti də bu kursu dəstəkləyir və bu baxımdan biz son 10 ildə ətalətlə irəliləyirik, müəyyən uğurlar əldə etmişik, biz Aİ ilə bağlıyıq, uzun müddətdir ki, Avropaya inteqrasiya məsələlərində liderlərdən biri kimi, biz NATO hərbi-siyasi blokuna üzvlük üçün ”aspirantura” statusuna sahibik. Biz bu yaxınlarda Moldova və Ukrayna ilə birlikdə Aİ-yə namizəd statusu üçün ərizə təqdim etmişik. Bütün bunlar Ukraynanın müharibə zamanı əldə etdiyi irəliləyişin sayəsindədir.

Bu, Aİ-nin Gürcüstan, Moldova və Ukraynanın üzvlük proseslərini sürətləndirmək üçün verdiyi siyasi qərar idi, çünki bundan əvvəl Gürcüstan hökuməti 2024-cü ildə Aİ-yə daxil olmaq üçün müraciət etmək niyyətində idi. İndi Gürcüstan üçün bir fürsət pəncərəsi açılıb və artıq çox şey Aİ-dən, onların regiondakı çətin vəziyyətə baxışından və qiymətləndirməsindən asılıdır.

***- Aİ-yə üzv olmaq üçün müəyyən meyarlara cavab verməlisən. Gürcüstan Aİ-yə daxil olmaq üçün hansı islahatları aparmalıdır?***

- Bu kriteriyalar Gürcüstan hökumətinin hazırda doldurduğu anketdə təsvir olunacaq. Söhbət əsasən demokratik təsisatların, insan hüquqlarının, hüquq-mühafizə və ədliyyə sistemlərinin inkişafı sahəsində islahatlardan gedir. Təəssüflər olsun ki, son dövrlərdə bu məsələdə öyünəcək heç nə yoxdur. Bu gün Gürcüstanın böhran vəziyyətində olması islahatların hələlik o qədər də yaxşı getmədiyini göstərir.

***- Bu gün səsvermə keçirilsə, hansı Aİ ölkələri Gürcüstanın üzvlüyünü dəstəkləyəcək?***

- Həmişə olduğu kimi, Almaniya və Fransa Aİ-nin genişlənməsinə şübhə ilə yanaşırlar. Bu, ikitərəfli səviyyədə bu ölkələrlə yaxşı münasibətlərimizin olmasına baxmayaraq. Hər iki dövlətin demokratik təsisatlarımızın və iqtisadiyyatımızın islahatlarında böyük rolu olub. Gürcüstanı əsasən Şərqi Avropa ölkələri, Baltikyanı ölkələr dəstəkləyirdi. Amma bütün bunlar indi Ukraynada baş verən ”tektonik sürüşmə”dən əvvəl idi.

İnteqrasiya proseslərinin bundan sonra necə inkişaf edəcəyini söyləmək çətindir. Çox güman ki, Fransa və Almaniyanın mövqeyi regionumuzdakı vəziyyətə uyğun düzəldiləcək və dəyişdiriləcək və bu dəyişiklik Gürcüstanın xeyrinə olacaq.

***- Qarabağ münaqişəsinin Azərbaycan tərəfindən həllinə münasibətiniz necədir?***

- Hesab edirəm ki, Azərbaycan beynəlxalq birlik və beynəlxalq hüquq tərəfindən tanınan ərazi bütövlüyünü və bütün ərazisi üzərində suverenliyini bərpa etmək baxımından düzgün yoldadır. İndi Bakı ilə İrəvan arasında vasitəçilərin rolu artacaq, baxmayaraq ki, həm Azərbaycan, həm də Ermənistan düzgün yoldadır, bir-biri ilə birbaşa əlaqə saxlayır.

***Eyni zamanda hesab edirəm ki, qonşularımız Rusiyanın vasitəçilik xidmətlərindən, Rusiya Federasiyasının Azərbaycan və Ermənistan ərazisində hərbi mövcudluğundan tədricən imtina etməli, Aİ ilə birlikdə münaqişənin sülh yolu ilə həllində vasitəçilikdə iştirak etməlidirlər.***

***.- Bu yaxınlarda prezident İlham Əliyev Gürcüstan, Azərbaycan və Ermənistan arasında regional əməkdaşlıq formatını təklif etdi. Bu formatın perspektivlərini necə qiymətləndirirsiniz və bu, 3+3 formatından nə ilə fərqlənəcək?***

- Mən yalnız Azərbaycan Prezidenti İlham Əliyevin ölkələrimiz arasında üçtərəfli əməkdaşlığın qurulması təşəbbüsünü alqışlaya bilərəm. Əgər ilkin olaraq belə bir ittifaq yaradılsaydı, burada regional münaqişələr olmazdı və biz Rusiya Federasiyasının təsirini azalda bilərdik. Ancaq gec olmaz, heç vaxt olmamasından yaxşıdır. Bu əməkdaşlıq formatı baş tutsa, regional inteqrasiyanın sabitləşməsinə və inkişafına töhfə verəcək. Ona görə də mən ancaq prezident Əliyevin diplomatiyasını alqışlayıram.

***Müsahibə- Tamilla Mamedova***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

## Politoloq: ”5-ci kolon” cəmiyyəti parçalamağa çalışır




”Azərbaycan hüquqi dövlətdir və onun əsas qanununda insan hüquq və azadlıqları ilə bağlı xüsusi fəsil var. Bu sahədə mövcud problemlər qanunvericilik çərçivəsində tənzimlənir, hüquqi dövlət quruculuğu istiqamətində müstəqilliyimizin ilk illərindən başlayaraq həyata keçirilən islahatlar bir qayda olaraq dövlət hakimiyyəti uçun prioritet əhəmiyyət kəsb edib”. Bunu ”Səs” qəzetinə açıqlamasında MDHP sədr müavini, politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, strateji kontekstdə təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Onun siyasi varisi Prezident İlham Əliyevin iqtidarı dövründə inkişaf etdirilmiş hüquqi, siyasi islahatlar nəticəsində ölkədə çoxpartiyalı sistem formalaşmış, azad mətbuat və KİV-lər meydana gəlmişdir: ”Müstəqil məhkəmə hakimiyyətinin qurulması istiqamətində ardıcıl islahatlar keçirilmiş, vətəndaşların iqtisadi fəaliyyəti azadlığına və azad sahibkarlığa ciddi əngəl olan korrupsiya və kölgə iqtisadiyyatına qarşı mübarizə təşkil olunmuşdur. Bundan əlavə Azərbaycan multikultural ənənələri olan dövlət kimi də tanınmış, ölkədə vətəndaşların dini etiqad azadlığı daim gözlənilmiş və etnik, dini zəmində ayrı seçkilik siyasətinə heç bir zaman yol verilməmişdir. Bununla belə iqtidarın etimad etdiyi ayrı-ayrı yüksək rəqlı dövlət məmurları tərəfindən vətəndaşlara və dövlətə aid olan əmlak və vəsaitlərin qeyri qanuni şəkildə mənimsənilməsi, hətta talan edilməsi faktları da mövcud olmuş və bu da haqlı olaraq vətəndaşlarda narazılıq doğurmuşdur. Lakin iqtidar bu hallara qarşı da dözülməz olmuş, bu kimi vətəndaşlar həm kadr siyasəti, həm də qanunvericiliyin nəzərdə tutduğu digər şəkillərdə tutduqları vəzifələrdən uzaqlaşdırılmış, cəzalandırılmışlar. Mətbuat və KİV-lərdə dövlətin bu sahədə olan siyasəti bir qayda olaraq geniş işıqlandırılmış, mövcud vəziyyət və onu doğuran hallar ictimaiyyətin nəzərinə çatdırılmış, müzakirə obyekti olmuşdur. Ölkədə bəzi QHT-lərin mövcud problemləri tamamilə fərli rakurs və kontekstdə verməlirinə gəlincə bu bir qayda olaraq onları maliyyələşdirən Qərbdəki bəlli dairələrin sifariş və maraqları ilə əlaqədardır. Bu QHT-lərin bir qismi müxalifətin məlum kəsiyi ilə bağlı olduqlarından onların isə fəaliyyətində siyasi konyunktura olmamış deyil, hadisələrin işıqlandırılmasında subyektivizmə və ifrata varırlar. Cəmiyyətdə xüsusilə məmur özbaşınalığı hallarından narazı olan vətəndaşlarda hakimiyyətə qarşı qıcıq yaratmaq, ölkədə sosial, dini, etnik zəmində qarşıdurma yaratmaq üçün ”5-ci kolon” sayıla biləcək bu elementlər vətən müharibəsində əldə olunmuş qələbədən sonra konsolidasiya olunmuş cəmiyyəti parçalamaq vəzifəsini həyata keçirməyə çalışırlar”.

E.Manafov onu da bildirdi ki, Qərbin Azərbaycana münasibətdə mövqeyindəki ikili standartlar ”5-ci kolon”da yer almış məkrli qüvvələrin maraqlarına cavab verir: ”Qərb bir tərəfdən Azərbaycanın onun enerji təhlükəsizliyində oynadığı rola böyük önəm və dəyər verir, bu və digər sahələrdə onunla əməkdaşlığın zəruriliyinin mahiyyətinə varır, digər tərəfdən ölkə iqtidar Qərbin təzyiq və tələblərinə baxmayaraq Rusiyaya qarşı iqtisadi sanksiyalara qatılmaması ilə bu cür davranışları həzm edə bilməyən bəlli maliyyə mərkəzlərinin narazılığına səbəb olur. Bu sahədə problemlər əvvəllər də olmuşdur və bunlara yol verməmək uçün ölkə qanunvericiliyinə QHT-lərin bəlli mərkəzlər tərəfindən maliyyələşməsini yasaq edən əlavə və dəyişikliklər edilmişdir. Fəaliyyətlərində qanunvericiliyin nəzərdə tutduğu müstəvidən kənara çıxanlarla isə qanunların sərt dili danışmaq lazımdır”.

***Gülyana***

SON SƏHİFƏ

Səs

13 may
2022-ci il

# Vinetka, yoxsa direktorların biznes marağı




“İlk növbədə qeyd edim ki, bu il orta ümumtəhsil məktəblərindən 85 min şagird məzun olacaq. Artıq Azərbaycanda uzun illərdir ki, orta ümumtəhsil məktəblərində təkcə 11-ci sinifi bitirənlər yox, eyni zamanda 1,2,3 və 4-cü sinif uşaqlara da vinetka çəkdirirlər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, bu, artıq bəzi direktorların biznes obyektinə çevrilib: ”Artıq ölkədə fəaliyyət göstərən bir çox məktəb direktorları yerli fotostudiyalarla əlaqə saxlayaraq, onlarla faizə işləyirlər. Yəni, hər uşağa veriləcək foto albomdan müəyyən bir məbləği mənimsəyirlər. Bu, ciddi ənənə halını alıb. Şagirdlər bütün fəsillərdə fotosessiya etdirirlər”.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Biz uşaqların albomlarına baxanda bütün il ərzini görə bilirik. Əslində, bu, yaxşı bir tendensiyadır. Amma burada böyük maliyyə tələb olunur. Foto albomların ən ucuzu 70-80 manatdır. Bu məbləğ 150-200 manata qədər yüksəlir. Bəzən imkanı olmayan uşaqlar burada psixoloji təzyiqə məruz qalır. Məktəblər öz maraqları üçün uşaqların psixologiyasına təsir göstərməməlidirlər”.

*Ayşən Vəli*

# Bəzi taksi sürücülərinin evindən xəbəri olmayan ƏMƏLLƏRİ

**Son zamanlar taksi sürücürlərinin əksəriyyəti müştəri ilə ünsiyyətdə olarkən etik normalara diqqət etmir, istədiyi kimi hərəkətlər edir və nəticədə etikadan kənar və xoşagəlməz hallar yaranır. Yəni bir sözlə məhz bu səbəbdən artıq bir çox insan taksi ilə yol getməkdən çəkinir. Bəs bu halların qarşını almaq üçün nə kimi tədbirlər görülməlidir? Sifariş taksi servislərinə sürücü götürərkən nələrə diqqət olunmalıdır? Mövzu ilə əlaqədar olaraq SİA olaraq ekspertlər arasında sorğu keçirdik.**




## EKSPERTLƏR DANIŞDI

**Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu:** ”Taksilərdə baş verən qeyri-etik hərəkətlərin qarşısını almaq və sürücü-müştəri münasibətlərinin stabilləşməsi üçün taksi şirkətləri sürücünü işə götürən zaman müəyyən imtahan etməli



və onları normativlərdən keçirməlidir. Bu normativlər əsasında onların sürücülük qabliyyətindən tutmuş, əxlaqi kodekslərinə kimi yoxlanılmalıdır. Hər küçədən keçən adam telefonda proqramdan qeydiyyatdan keçərək sürücülük edir. Bu xüsusilə də onlayn taksi şirkətlərinə aiddir. Hansısa bir şəxs Amerikada oturur və burada şirkət yaradır. Demək olar ki, o şirkətlərin heç birinin işçiləri yoxdur. Bunun da nəticəsi olaraq yoldan keçən biri qeydiyyatdan keçir və həmin şirkətin yiyəsinin o adamdan xəbəri olmur ki, bu kimdir və nə ilə məşğul olur. Mən düşünürəm ki, bu çox ciddi bir mövzudur. Məhz bu səbəbdən Bakı Nəqliyyat Agentliyi bu prosesə nəzarət etməlidir. Həmçinin Agentlikdə mütəxəssislər tərəfindən müəyyən testlər yaradılmalıdır ki, hər kimsə bu peşəylə məşğul olmaq istəyirsə həmin testlərdən keçməlidir. Hələ Sovet dövründə taksi sürücüləri xüsusi olaraq təlim keçirdilər və daha sonra vəsiqə alaraq bu peşəyə yiyələnirdilər. Amma indi bunların heç birinə əməl olunmur. Buna görə də xüsusi ilə qadınlar taksilərə minməyə qorxurlar”.

**Tənqidçi ekspert Aydın Xan Əbilov:** ”Azərbaycan ictimai nəqliyyatının bir hissəsi olan ictimai taksi həyatımızın bir hissəsinə çevrilib. Bir müddət London taksiləri adı altında komfortlu maşınlar şəhərə gətirildi. Lakin bunların qiyməti baha olduğuna görə, rəqabətə tab gətirə bilməyib sıradan çıxdılar. Daha sonra elektrikli taksilər gətirildi və onların da qiyməti baha olduğuna görə, insanların həmin taksilərdən istifadə etmək faizi demək olar ki, çox olmadı. Amma son illərdə fərdi nəqliyyat vasitəsilə, o cümlədən də kirayəyə götürdükləri maşınlar sayəsində taksi fəaliyyəti ilə məşğul olan sürücülərin sayı həddindən artıq çoxdur. Xüsusilə gənc və orta nəslin nümayəndələri Uber, Bolt və s. bunlar kimi qlobal taksi şirkətlərinin brendi altında taksi fəaliyyəti ilə məşğul olurlar. Vətəndaşlar da kütləvi şəkildə ucuz qiymətə



uzaq məsafələrə gedirlər. Sürücülərin asanlıqla taksi fəaliyyətindən istifadə etməsi bir çox problemlərə səbəb olur. Gənc sürücülərin əksəriyyəti kobud şəkildə yol-hərəkəti qaydalarını pozaraq, tez-tez qəzalara yol verirlər. Həmçinin xüsusi ilə xanım müştərilərə qarşı etik-normaları pozurlar. Buna görə də bu mənfi halların qarşısını almaq üçün dövlət qurumları müəyyən mənada normativ aktlar qəbul etməlidirlər. Bu normativ aktlar illərdir ki, qəbul olunur və taksi sürücülərin öz vəzifə geyim formasından tutmuş vəsaiti göstərən aparata qədər müəyyən qanunlar qoyulsa da, bunları real həyata görmək qeyri-mümkündür.

Düzdür, bir çox cavanlarımız hazırda işsizlikdən əziyyət çəkirlər və yaxud da əməkhaqqları az olduğu üçün işdən sonra sürücülüklə məşğul olurlar. Belə olduğu halda da həmin insanlar normal qidalana bilmirlər və yuxu sistemləri də pozulur. Bunun üçün də qəzəbli olurlar. Lakin bəzən isə elə gənclər var ki, qadınlarla tanış olmaq və cinsi əlaqə qurmaq üçün taksi fəaliyyəti ilə məşğul olurlar. Ucuz işçi qüvvəsi olan gənclərin bir qismi isə narkotik və sintetik uyuşdurucu maddələrdən istifadə edirlər. Əlbəttə ki, narkotikin satışı və istifadəsi ilə məşğul olan insan bir taksini götürüb, kirayələyərək narkotika alveri ilə məşğul olursa təbii ki, bu düzgün deyil. Bu baxımdan onların hər gün psixoloji vəziyyəti yoxlanılmalı, narkoloji və alkaqol testdən keçirilməlidir. Nəzarət sistemi isə sifariş taksilərin qiymətlərinin qalxmasına səbəb olmamalıdır”.

*Banuçiçək Hüseynli*

# Xızıda dəhşətli yol qəzası: 3 nəfər öldü!

**Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) Xızıda 3 nəfərin ölümü ilə nəticələnən yol qəzası ilə bağlı məlumat yayıb. BDYPİ-dən SİA-ya daxil olan məlumatda deyilir ki, bu gün saat 09:00 radələrində Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Xızı rayonu ərazisindən keçən 69-cu kilometrliyində paytaxt istiqamətində hərəkətdə olan Xızı rayon sakini, 1991-ci il təvəllüdlü Qasımov Orxan Heydər oğlunun idarə etdiyi ”VAZ-2106” markalı, 10-BP-326 dövlət qeydiyyat nişanlı avtomobil ilə onunla əks istiqamətdə hərəkətdə olan Rusiya Federasiyasının vətəndaşı Maqomed Abdulmecidovun idarə etdiyi ”DAF” markalı, T 706ME05 qeydiyyat nişanlı yük avtomobili toqquşub.**




**Nəticədə ”VAZ-2106” markalı avtomobilin sürücüsü O.Qasımov, eləcə də sərnişinləri Xızı rayon sakini, 1991-ci il təvəllüdlü Xudabaxışov Pərviz Nurəddin oğlu və onun 2 aylıq qızı Xudabaxışlı Mədinə Pərviz qızı hadisə yerində ölüb, avtomobildə olan digər sərnişinlər - 1964-cü il təvəllüdlü Vəsxanım Xudabaxışova və 1998-ci il təvəllüdlü Əfsanə Xudabaxışova isə xəsarət alıblar. Yaralılar Siyəzən Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. Faktla bağlı araşdırma aparılır.**




## Təbrik

Şərur rayon müharibə, əmək, silahlı qüvvələr və hüquq mühavizə orqanları veteranlar şurası təşkilatının sədri Vidadi Süleymanovun doğum günüdür. Bu münasibətlə onu həyat yoldaşı Matan xanım, övladları Cəfərqulu, Kənan, Novruz, İlhamə, nəvələri Nuray, Aytac, Gülay, Altay, Yusif, Həsən və Hüseyin təbrik edir Allahdancan sağlığı və xoş günlər arzu edirlər!!!

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**